RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 267 (8290) BAZAR, 1 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# TANAP Türkiyə, Azərbaycan və digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir

## İLHAM ƏLİYEV: "Həyata keçirilən nəhəng layihələr Azərbaycan və Türkiyənin gücünü göstərir"

Noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Əvvəlcə "Cənub qaz dəhlizi"nin ən mühüm seqmentlərindən biri və Avropanın enerji təhlükəsizliyində mühüm amil olan TANAP - Trans-Anadolu qaz boru kəməri layihəsinin icrasına həsr olunmuş videoçarx nümayiş etdirildi. SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz TANAP layihəsinin əhəmiyyətindən danışdılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.




## Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Türkiyə Respublikasının Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

İlk növbədə, qardaşım Rəcəb Tayyib Ərdoğana məni bu tarixi mərasimə dəvət etdiyi və göstərdiyi qonaqpərvərlik üçün dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam.

Bu gün tarixi gündür. Bu gün dörd il bundan əvvəl birlikdə təməlini qoyduğumuz TANAP Avropa sərhədinə çatdı. Bu münasibətlə hamımızı ürəkdən təbrik edirəm. Əminəm ki, TANAP-ın ömrü uzun olacaq, TANAP Türkiyə və Azərbaycan xalqlarına, digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir.

Dörd il əvvəl Qars şəhərində əziz qardaşım Prezident Ərdoğanla birlikdə TANAP-ın təməlini qoyduq. Ancaq TANAP-a aparan yol 2012-ci ildə başlamışdır. Tarixi İstanbul sazişi nəticəsində TANAP-ın yaşıl işığı yandırıldı. Tarixi İstanbul anlaşması Türkiyə və Azərbaycanın birgə siyasi iradəsi nəticəsində mümkün olmuşdur. Çünki TANAP haqqında bu qərarın qəbul edilməsinə qədər Azərbaycan qazının Türkiyə və ondan sonra Avropaya nəql edilməsi ətrafında bir neçə il çox böyük mübahisələr və müzakirələr aparılmışdır, ancaq heç bir nəticə verməmişdir. Belə olan halda əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə qərara gəldik ki, bizə lazım olan bu nəhəng layihəni özümüz həyata keçirək və belə də oldu. Bu gün bu layihəyə qoşulan BP şirkəti bizim tərəfdaşımızdır. Ancaq əsas texniki və maliyyə yükünü Azərbaycan və Türkiyə öz üzərinə götürmüşdür.

TANAP-a qədər apardığımız birgə işlər TANAP-a yol açdı. Çünki əgər 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı. Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin təməlini çağdaş Azərbaycan dövlətinin lideri Heydər Əliyev öz əlləri ilə qoymuşdur və 2006-cı ildə əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Ceyhanda Bakı-Tbilisi-Ceyhan neft boru xəttini istismara verdik. Bu günə qədər Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyə və dünya bazarlarına Azərbaycanın və başqa dövlətlərin 450 milyon tondan çox nefti nəql edilmişdir. Bunun böyük hissəsini - 400 milyon tondan çoxunu Azərbaycan, 27 milyon tonunu Türkmənistanın, 12 milyon tonunu Qazaxıstanın, 7 milyon tonunu Rusiya nefti təşkil edir. Yəni, bir sözlə, Bakı-Tbilisi-Ceyhan nəinki Azərbaycanın, digər ölkələrin nefti üçün də gözəl bir infrastruktur layihəsi oldu və bu gün də uğurla fəaliyyət göstərir. 2007-ci ildə yenə də əziz qardaşımla Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin açılışını etdik və bu da TANAP-a yol açan digər layihə idi. Qeyd etdiyim kimi, 2015-ci ildə Qarsda TANAP-ın inşası başlamışdır. Fürsətdən istifadə edərək, TANAP-ın inşasında iştirak etmiş bütün insanlara dərin təşəkkürümü bildirmək istəyirəm. Onların fədakarlığı və peşəkarlığı bu nəhəng layihənin vaxtında istismara verilməsində böyük rol oynamışdır.

TANAP "Cənub qaz dəhlizi"nin bir hissəsidir. "Cənub qaz dəhlizi" nəhəng infrastruktur layihəsidir, maliyyə dəyəri 38 milyard dollardır və dörd layihədən ibarətdir. Onlardan üçü - "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri istifadəyə verilib, bu gün isə TANAP tam istifadəyə verilir. Dördüncü layihə olan TAP-ın icrası artıq 90 faizi keçib. Əminəm ki, TAP da vaxtında istismara veriləcək. Beləliklə, Avrasiyada ən böyük infrastruktur layihələrindən biri olan "Cənub qaz dəhlizi" vaxtında istismara veriləcəkdir.

Bildirməliyəm ki, bu layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin məhsuludur, eyni zamanda, biz bunu digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırdıq. Bu gün "Cənub qaz dəhlizi" özündə 7 ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaq. Bu layihədə iştirak edən 7 ölkə, - onlardan üçü Avropa İttifaqının üzvüdür, - bundan sonra uzun illər birlikdə çalışacaq və bunun faydasını bölüşəcəklər. Yəni bu layihə əməkdaşlıq, sabitlik, uzunmüddətli anlaşma gətirir. Yəni bu layihələrə, sadəcə olaraq, enerji layihələri kimi baxmaq düzgün olmaz. Onu da bildirməliyəm ki, bizim enerji layihələrimiz digər layihələrə də yol açdı. İki il bundan əvvəl əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını qeyd etdik.

Ardı 2-ci səh.

## İslahatlar idarəetməyə yeni keyfiyyət dəyişiklikləri gətirir

Prezident İlham Əliyevin dövlət idarəçiliyi sistemini daim təkmilləşdirməsi və bu istiqamətdə düşünülmüş addımların atılması xalqın və dövlətin maraqlarına, milli mənafeyinə xidmət edir. Bu proses yalnız kadrların dəyişməsi kimi xarakterizə edilmir, eyni zamanda idarəetməyə yeni keyfiyyət dəyişikliklərinin gətirilməsi ilə səciyyələnir.

Noyabrın 29-da Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Prezident Administrasiyasının yeni strukturu da təsdiq olundu və tərkibi yenidən formalaşdırıldı. Bunlar bir müddət əvvəl "İslahatlara alternativ yoxdur" və "Kadr islahatları labüddür, qaçılmazdır" fikirlərini söyləyən dövlət başçısının daha çevik idraəetmə formasının yaradılması istiqamətində həyata keçirdiyi işlərin davamıdır.

Bu il noyabrın 29-da isə Prezident İlham Əliyev İsrafil Məmmədovu yeni vəzifəyə - Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) icraçı direktoru təyin olunması ilə əlaqədar qəbul edib. Qəbul zamanı dövlət başçısı bildirib ki, fondun fəaliyyətini yüksək qiymətləndirir. Məhz buna görə fondun icraçı direktoru Şahmar Mövsümovu Prezidentin köməkçisi vəzifəsinə təyin edib. ARDNF-nin yeni təyin olunan icraçı direktoruna isə tövsiyə və tapşırıqlar verib: "Tövsiyəm ondan ibarətdir ki, əldə olunmuş uğurları davam etdirəsiniz. Biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Dövlət Neft Fondu həm öz aktivlərini artırmalı, onları əhəmiyyətli şəkildə yerləşdirməlidir. Strateji resursumuz olan neft fondumuz daim ölkəmizin, xalqımızın mənafeyi üçün çalışmalıdır".

Ardı 5-ci səh.

## Qarşılıqlı etimada və strateji tərəfdaşlığa söykənən əlaqələr

### İlham ƏLİYEV: "Mehriban Əliyevanın Moskvaya rəsmi səfəri Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi"

Birinci vitse-prezident Mehriban Əliyevanın Moskva səfəri Azərbaycanla Rusiya arasındakı münasibətlərin mehriban qonşuluq və dostluq prinsipləri üzərində bərqərar olduğunu bir daha təsdiq etdi.

Ən əsası, bu, Mehriban Əliyevanın Birinci vitse-prezident kimi Rusiyaya ilk rəsmi səfəri olsa da, keçirilən görüşlər və aparılan danışıqlar əlaqələrin həm də strateji xarakterini göstərdi.

### Dövlət başçılarının səyləri əməkdaşlığın genişlənməsinə güclü təkan verib

Bu gün Rusiya və Azərbaycan arasında qarşılıqlı anlaşma mühiti hökm sürür. Son illərdə isə əlaqələr yüksələn xətt üzrə daha sürətlə inkişaf edib, dövlət başçılarının qarşılıqlı səfərləri əməkdaşlığın genişlənməsinə güclü təkan verib. Təkcə 2018-ci il ərzində iki dövlətin prezidentləri 6 dəfə görüşüblər. Bütün bu görüşlərin hər birində müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi, layihələrin və təşəbbüslərin həyata keçirilməsi müzakirə edilib, bir sıra mühüm sənədlər imzalanıb.

Ardı 5-ci səh.

## Qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması davam edir



Dövlətin həyata keçirdiyi sosial siyasətdə qaçqın və məcburi köçkünlərin məişət şəraitinin yaxşılaşdırılması mühüm yer tutur. Həmin siyasətin əsas məqsədi bu kateqoriyadan olan insanların rifah halını yaxşılaşdırmaq üçün mütəmadi tədbirlər görməkdir. Ölkəmiz neftdən əldə etdiyi gəlirdən ilk növbədə qaçqın və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması üçün istifadə etdi.

Ümummilli Lider Heydər Əliyevin qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün gördüyü işlər məlumdur. Prezident İlham Əliyev də dövlət başçısı seçildikdən sonra bu kateqoriyadan olan insanların mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi önəm verdi.

Ardı 5-ci səh.

# TANAP Türkiyə, Azərbaycan və digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir









*Əvvəli 1-ci səh.*

Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə həm Azərbaycanın, həm Orta Asiya ölkələrinin, həm də Əfqanıstanın və Çinin yükləri daşınır. Bu dəmir yolu qitələri birləşdirir. Necə ki, bizim boru xətlərimiz. Digər layihə elektrik enerjisinin ötürülməsidir. Artıq Azərbaycan Gürcüstana və Türkiyəyə elektrik enerjisini ixrac edir. Əgər enerji layihələri, yaşadığımız bölgədə sabitlik, qarşılıqlı dəstək, anlaşma olmasaydı, bunların biri də həyata keçməzdi.

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı gündən-günə möhkəmlənir. Mən bu gün dünya miqyasında ikinci belə ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olsun. Bizim aramızdakı ticarət dövriyyəsi artır. Bu ilin 9 ayında ticarət dövriyyəmiz 40 faizdən çox artıb və 3,4 milyard dollara çatıbdır. Qarşılıqlı yatırımlar bizim qardaşlığımızı göstərir və eyni zamanda, onu göstərir ki, biz bir-birimizə güvənirik. Bir-birimizin iqtisadiyyatına dəstək veririk. Türkiyə bu günə qədər Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox vəsait yatırıb. Azərbaycan isə Türkiyəyə 17,5 milyard dollar sərmayə qoyub və bu yatırımlar bizim xalqlarımızın rifah halını yaxşılaşdırır.

Eyni zamanda, Türkiyə bu gün xarici sərmayələr üçün açıq ölkədir və çox məqbul yerdir. Əziz qardaşım Prezident Ərdoğanın liderliyi sayəsində Türkiyə həm iqtisadi, həm də siyasi sahədə böyük uğurlara imza atıb. Biz əvvəlki dövrü yaxşı xatırlayırıq. O vaxt Türkiyə Beynəlxalq Valyuta Fondunun və başqa maliyyə qurumlarının borcundan yaxa qurtara bilmirdi, asılı vəziyyətdə idi. İqtisadi asılılıq istər-istəməz siyasi asılılığa gətirib çıxara bilər. Məhz Prezident Ərdoğan tərəfindən aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində Türkiyə bu asılılıqdan yaxasını qurtara bildi və bu gün çox güclü iqtisadiyyat kimi dünya miqyasında öz sözünü deyir. Bu gün Türkiyə dünya miqyasında güc mərkəzidir. Nəinki yerləşdiyi bölgədə, dünyada Türkiyənin sözünün çəkisi artır, imkanı genişlənir və hər kəs bilməlidir, heç kim unutmamalıdır ki, bu qardaş ölkə buna görə kimə borcludur.

Tarixdə liderlərin rolu haqqında kifayət qədər kitablar yazılıb, elmi əsərlər yaradılıb və müxtəlif fərziyyələr, fikirlər var. Onların hər biri qəbuldur. Ancaq tarix göstərir ki, liderin rolu bir çox hallarda həlledici olur, bu, danılmazdır. Bu gün möhkəm Türkiyə və onun lideri inkişafı, sabitliyi təcəssüm etdirir və gələcəyə nikbinliklə baxmaq üçün imkan yaradır. Biz buna sevinirik. Çünki Türkiyənin gücü bizim gücümüzdür, Türkiyənin uğuru bizim uğurumuzdur və biz birlikdə bundan sonra da iki qardaş ölkə kimi çiyin-çiyinə irəliyə gedəcəyik. Bizim qarşımızda bütün üfüqlər açıqdır. Həyata keçirdiyimiz bu nəhəng layihələr bizim gücümüzü göstərir və bizim gücümüzü artırır. İqtisadi güc nəticədə siyasi gücə çevrilir.

TANAP və "Cənub qaz dəhlizi", eyni zamanda, enerji təhlükəsizliyi layihəsidir. Bu gün dünya miqyasında enerji təhlükəsizliyi haqqında danışılır və bu məsələ dünyanın gündəliyini zəbt etmişdir. Hesab edirəm ki, burada çox gözəl əməkdaşlıq formatı yaradılıb. İstehsalçı ölkə Azərbaycan, tranzit ölkələri və istehlakçı ölkələr birlikdə çalışır. Bizim mənafeyimiz də birdir, gəlirimiz də ədalətli şəkildə bölünür. Bir daha demək istəyirəm ki, bütün bu layihələr bölgədəki sabitliyi möhkəmləndirir.

Mən əminəm ki, bundan sonra da birgə həyata keçirəcəyimiz bütün layihələr TANAP kimi, Bakı-Tbilisi-Ceyhan kimi, Bakı-Tbilisi-Ərzurum kimi, Bakı-Tbilisi-Qars kimi uğurlu olacaq, Türkiyə və Azərbaycan birlikdə gələcəyə inamla addımlayacaq.

Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı!

❖ ❖ ❖

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

**Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı**

- Azərbaycan Prezidenti, çox hörmətli qardaşım İlham Əliyev.

Gürcüstanın Baş Naziri hörmətli Giorgi Qaxariya.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü cənab Şefik Caferoviç.

Serbiya Milli Məclisinin sədri xanım Maya Qoykoviç.

Hörmətli nazirlər, səfirlər, enerji ictimaiyyətinin təmsilçiləri.

Sizi ən səmimi hislərimlə, sevgi və ehtiramla salamlayıram.

"Cənub qaz dəhlizi" layihəsinin bel sütununu təşkil edən Trans-Anadolu təbii qaz boru kəməri - TANAP-ın Avropa ilə birləşən hissəsinin xeyirlərə səbəb olmasını diləyirəm. Sizi bu mühüm açılış mərasimi münasibətilə ölkəmizdə qəbul etməkdən böyük məmnunluq duyuram. Sevincimizi bölüşmək məqsədilə Ədirnəyə gəldiyiniz üçün hər birinizə təşəkkür edirəm.

Bu gün hamımız birlikdə ölkələrimiz və bölgəmiz üçün həqiqətən də tarixi bir ana şahidlik edirik. Hər mərhələsi səbirlə, diqqətlə, Türkiyə, Azərbaycan və Gürcüstanın ortaq səyləri ilə ərsəyə gələn yeddi il yarımlıq uzun və çətin bir prosesi uğurla başa çatdırmağın haqlı qürurunu yaşayırıq.

Birincisi, TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu, bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür.

Bu layihə hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir. Layihənin uğur qazanmasında istehsalçı, tranzit və istehlakçı ölkələrlə bu layihədə pay sahibi olan şirkətlər arasındakı uzlaşma da həlledici rol oynayıb. Xatırlatmaq istərdim ki, TANAP-la bağlı ilk addımı 2012-ci ilin iyun ayında İstanbulda hökumətlərarası müqavilələrin imzalanması ilə atmışdıq.

"Şahdəniz 2" yekun investisiya sazişini isə 2013-cü ilin dekabr ayında Bakıda təşkil edilən mərasimlə başa çatdırdıq. Bundan sonra 2015-ci il martın 17-də Qarsda Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin iştirakı ilə TANAP-ın təməlqoyma mərasimi keçirildi. Bu tarixdən üç il sonra - 2018-ci il iyunun 12-də isə dost və qardaş ölkələrin də iştirakı ilə Əskişəhərdə TANAP-ın açılış mərasimini keçirdik. 2012-ci ilin iyunundan ötən müddətdə TANAP layihəsinin reallaşdırılması üçün həqiqətən böyük əmək sərf etdik. Xüsusilə, daxildə və xaricdə dəf etdiyimiz bir neçə təhlükəli vəziyyətə, regional gərginliyə, hətta silahlı toqquşmalara qədər gedib çıxan qeyri-sabitliklərə baxmayaraq, TANAP-ı planlaşdırıldığı kimi həyata keçirdik.

Çox dəyərli qardaşım Əliyevin şəxsən diqqəti, istər Gürcüstanın aidiyyəti qurumları ilə əməkdaşlıq, istərsə də bu layihədə əməyi olan qardaşlarımızın səyləri ilə, şükür olsun, TANAP-ı bugünkü səviyyəyə gətirdik. Bu gün hamımız birlikdə sərf etdiyimiz əməyin hədər getmədiyini görürük. "Enerjinin İpək yolu" adlandırılan bu möhtəşəm layihənin nəzərdə tutulan təqvimə, hədəflərimizə və öhdəliklərimizə uyğun şəkildə ölkələrimizlə bağlı hissəsini bu gün tamamlayırıq.

Bu layihə ilə sahib olduğumuz zənginlikləri öz vətəndaşlarımızın, onlarla yanaşı, bütün bölgə xalqlarının, bütün insanlığın xidmətinə verməklə bağlı iradəmizi bir daha ortaya qoyduq. Biz TANAP ilə ölkəmizin enerji ehtiyacını təmin etməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinə də töhfə verməyi hədəflədik.

Siz də bildiyiniz kimi, TANAP Azərbaycandan Avropaya uzanan 3500 kilometrlik enerji dəhlizinin ən önəmli hissəsidir. Bu gündən etibarən Azərbaycanın təbii qazı ölkəmizin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək artıq Avropanın qapısına, yəni, buraya çatmışdır. TANAP ilə 16 milyard kubmetr Azərbaycan təbii qazının Türkiyənin və Avropanın istifadəsinə verilməsi əfsanədən həqiqətə çevrilib. Bu 16 milyard kubmetr qazın 6 milyardını biz, 10 milyardını isə Avropa ölkələri istifadə edəcək.

Həqiqətən də 2019-cu il noyabrın 18-dək TANAP vasitəsilə Türkiyəyə daşınan qazın həcmi 3,23 milyard kubmetrə çatdı. Qarşıdakı illərdə TANAP-ın nəqletmə qabiliyyətini əvvəlcə 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. Bundan sonra əsl məsuliyyət sərhədin o biri tərəfindəki qonşularımızın üzərinə düşür. Avropaya qaz nəqlinin başlaması üçün Trans-Adriatik təbii qaz boru kəməri - TAP qısa müddətdə başa çatdırılmalıdır. İnşallah, TAP-ın 2020-ci ildə başa çatdırılmasını gözləyirik.

Əziz dostlar, bəşəriyyət son iki əsrdə enerji mənbələrinə nəzarət uğrunda müharibələr, mübarizələr aparmış, nəticədə milyonlarla insan həyatını itirmişdir. Xüsusilə, yerləşdiyimiz coğrafiya enerji mənbələri ilə bağlı yaşanan ağır rəqabətə bilavasitə səhnə olub. Yaxın Şərqin on illər boyunca qeyri-sabitliklə mübarizə aparması planının arxasında məhz bu məsələ vardır. Bir damcı nefti insan qanından, insan həyatından daha qiymətli hesab edən düşüncə dünyaya sülh və əmin-amanlıq gətirə bilməmişdir. Yaşanan bu qədər acıya, ölümə, fəlakətə baxmayaraq, təəssüf ki, bu düşüncənin müəyyən qüvvələr tərəfindən davam etdirildiyini görürük. Xüsusilə, Aralıq dənizinin şərqində mövcud karbohidrogen ehtiyatlarının bölüşülməsi məsələsində bəziləri ədalətli bölgü əvəzinə, gərginliyi körükləməyə çalışırlar. Ədalətli bölgü imkanı var ikən, təhdid dilinə və şantaj siyasətinə əl atırlar. Halbuki heç bir ölkə beynəlxalq hüquqdan üstün deyil. Zor gücü ilə bir nəticənin hasil ola bilməyəcəyi artıq dərk edilməlidir. "Mən etdim, oldu" məntiqi ilə heç kəs öz istəyinə çata bilməz. "Əba altından dəyənək" göstərərək heç bir ölkə başqasını öz haqlarından əl çəkməyə məcbur edə bilməz. Xüsusilə, Türkiyə belə bir düşüncəyə əsla boyun əyməz.

Ölkəmiz nə öz hüququnun, nə də Kipr türkünün maraqlarının tapdanmasına icazə verməz. Aralıq dənizinin şərqində uzun dəniz sahillərinə sahib olan bir ölkəni kənarlaşdıraraq layihələr həyata keçirməyə çalışmaq onsuz da mümkün deyil. Hazırda ən son texnologiyalara sahib iki qazma gəmimiz - "Fateh" və "Yavuz" ilə iki seysmik araşdırma gəmimiz bölgədə fəaliyyətlərini davam etdirir. Biz onların çığır-bağırı ilə bu gəmilərimizi oradan çəkməyəcəyik. Onlar hazırda orada öz vəzifələrini yerinə yetirirlər və yetirməkdə davam edəcəklər. Gəmilərimizin və heyətlərimizin təhlükəsizliyi isə Dəniz Qüvvələrimiz tərəfindən ən yüksək səviyyədə təmin edilir. Bu gəmilərin həyata keçirdiyi fəaliyyətlərin qısa müddətdə bəhrə verəcəyinə inanıram. Bilirsiniz, indi Liviya ilə də anlaşma əldə etdik. Liviya ilə əldə etdiyimiz bu anlaşma parlamentimizdə təsdiq olunduqdan sonra həmin işi xeyli fərqli səviyyəyə çatdıracağıq. İndi nə edirlər? Liviyanı təhdid etməyə başlayıblar. Bu anlaşma əldə edildi. İndi bu anlaşmanın digər hissələri də eyni qaydada tətbiq ediləcək. Bizim qazma işlərimizdən münaqişə və qan deyil, sülh və rifah püskürəcəkdir.

Mən bu inamla sizin vasitənizlə Aralıq dənizindəki bütün tərəflərə səmimi bir çağırış etmək istəyirəm: Gəlin, enerjini münaqişə vasitəsi əvəzinə, əməkdaşlıq zemininə çevirək. Diplomatiyanın imkanlarından istifadə etmək var ikən, bölgəyə yeni qurbanlar verdirəcək yollara əl atmayaq!

Əziz dostlar, artan əhali və böyüyən iqtisadiyyat nəticəsində enerjinin çox ciddi bir qlobal məsələ olaraq qarşımızda durduğunu bilirik. Eyni qaydada dünya enerji xəritəsinin dəyişdiyini, bu sahədə yeni aktorların, yeni layihələrin məhz bu gün burada olduğu kimi, yeni əməkdaşlıq modellərinin ortaya çıxdığını görürük. Enerji təhlükəsizliyinin təmin edilməsində istehsalçı, tranzit və istehlakçı ölkələr arasındakı möhkəm əməkdaşlığın vacib olduğuna inanırıq.

Türkiyə strateji mövqeyi ilə enerjini hasil və istehlak edən ölkələrin tam qovuşuğunda yerləşir. Bu gün Yer kürəsində mövcud təbii qaz ehtiyatlarının 70 faizi, neft ehtiyatlarının isə 60 faizi qonşularımızın torpaqlarındadır. Bundan başqa, ölkəmiz Avropanın dördüncü, dünyanın isə 18-ci ən böyük təbii qaz bazarıdır. 2002-ci ildə beş vilayətimizdə təbii qaz var idisə, artıq 81 vilayətimizin hamısına təbii qazın çatdırılmasını təmin etdik. 2019-cu il avqustun sonuna olan rəqəmlərə əsasən, 144 min kilometrdən çox təbii qazpaylama şəbəkəsinə nail olmuşuq.

*Ardı 3-cü səh.*

# TANAP Türkiyə, Azərbaycan və digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir



*Əvvəli 2-ci səh.*

Ölkəmizin əhalisinin 81 faizinə, yəni, 66,5 milyon insanımıza təbii qazı çatdırdıq. 2018-ci ildə təbii qaz tələbatımız isə 49,3 milyard kubmetrə çatıb. Təbii qazsaxlama potensialımızı 4 milyard kubmetrdən 11 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. İki üzən qazsaxlama və qazlaşdırma gəmisini istifadəyə verdik. İnşallah, bunlara daha birini də əlavə edəcəyik. Ümumilikdə 5,4 milyard kubmetr tutumu olan Duz gölü yeraltı qaz anbarlarının sonuncusunun təməlini bu il qoyduq. Onun 2023-cü ildə istifadəyə verilməsi ilə dünyanın ən böyük yeraltı qaz anbarlarına sahib olacağıq.

Bütün bu statistik rəqəmlərin ölkəmizə təmin etdiyi imkanlarla yanaşı, çox ciddi bir məsuliyyət də tələb etdiyini bilirik. Həqiqətən də bu günə qədər bu məsuliyyətimizi dərk edərək hərəkət etdik. Qarşılaşdığımız bir çox ikili standartlara baxmayaraq, dialoqdan, diplomatiyadan, beynəlxalq hüquqdan əsla geri çəkilmədik. Rəqabət əvəzinə əməkdaşlığın, gərginlik əvəzinə müzakirənin, münaqişə əvəzinə məsələlərimizi danışaraq həll etmək yolunu seçdik. Bizə bir addım atana biz qaçaraq getdik. Bu gün də, sabah da eyni xoş niyyətlə hərəkət etməyə davam edəcəyik. Nə öz haqlarımızdan, nə Şimali Kiprin haqqından vaz keçəcəyik, nə də haqqımız olmayana əl uzadacağıq. Ədalət, sabitlik və regional əməkdaşlıq üçün səylərimizi davam etdirəcəyik.

Bu gün hamımız birlikdə Avropa ilə birləşməsinin açılış mərasimini qeyd etdiyimiz TANAP ölkəmizin sülhpərvər baxışının konkret nümunəsidir. Dünya gündəmini ticarət müharibələrinin, terrorun, etirazların, qeyri-sabitliyin zəbt etdiyi bir dövrdə biz bu gün Avropa ilə Asiyanı TANAP vasitəsilə birləşdiririk. Buradan bölgəmizlə yanaşı, bütün dünyaya əməkdaşlıq və tərəfdaşlıq mesajları veririk. Türkiyəni üç qitənin enerji və ticarət mərkəzinə çevirmək yolunda yeni bir addım atırıq.

Çıxışımı bu düşüncələrlə yekunlaşdırarkən TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirak etdiklərinə, görülən işlərdə əməyi olan memarından mühəndisinə qədər bütün qardaşlarıma, bütün rəhbər şəxslərə, xüsusilə qardaşım İlham Əliyevə, Gürcüstandakı dostlarımıza səylərinə görə şəxsən öz adımdan, millətim adından bir daha təşəkkürlərimi bildirirəm.

Təbii ki, qardaşım İlham Əliyevin liderliyini unutmaq əsla mümkün deyil. Qonşumuz Gürcüstana əməkdaşlığı ilə bu layihəyə həyat verdikləri üçün minnətdarlığımızı xüsusilə ifadə edirəm. Qarşıdakı dövrdə "Hamımız qazanaq" prinsipi ilə yeni layihələrə imza atacağımıza inanır, hamınızı sevgi və ehtiramla salamlayır, "Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!" deyirəm.

❖ ❖ ❖

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın Baş Naziri Georgi Qaxariya və digər rəsmi şəxslərin iştirakı ilə TANAP kəmərini TAP kəməri ilə birləşdirilməsi mərasimi oldu.

Mərasim xatirə şəklinin çəkdirilməsi ilə başa çatdı.

❖ ❖ ❖

Qeyd edək ki, "Cənub qaz dəhlizi"-nin əsas seqmenti olan TANAP Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" qaz-kondensat yatağından çıxarılan qazı avropalı istehlakçılara çatdıracaq. TANAP Türkiyənin Ərdahan vilayətinin Posof qəsəbəsindən başlayaraq qardaş ölkənin ərazisi boyunca 20 şəhərdən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru kəməridir. Azərbaycan qazını Türkiyəyə və Avropaya çatdıran TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşib. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca uzanan hissəsi isə 480 kilometrdir.

TANAP layihəsi ilə bağlı Azərbaycan ilə Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Layihə üzrə yekun investisiya qərarı isə 2013-cü il dekabrın 17-də qəbul edilib. 2015-ci ildə Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı ilə Qarsda keçirilən təməlqoyma mərasimindən sonra boru kəmərinin inşasına başlanılıb.

Boru kəmərinin quru hissəsinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. TANAP-dan Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir.

"Enerjinin İpək yolu" adlandırılan TANAP-ın birinci fazası keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başlayıb.

## Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir




Noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında görüş olub.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi. Ölkələrimizin həyata keçirdiyi qlobal layihələrin, TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasiminin önəmi qeyd edildi. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin bundan sonra da daim möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olundu.

## TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasiminin iştirakçılarının şərəfinə ziyafət verilib



Noyabrın 30-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasiminin iştirakçılarının şərəfinə ziyafət verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak edib.

Bununla da Prezident İlham Əliyevin Türkiyəyə səfəri başa çatıb.



## Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin zayed Al Nəhyana

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Laos Xalq Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Bounyanq Voraçitə

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Laos xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktuma

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

# Bibiheybət yolunda baş vermiş sürüşmə ilə əlaqədar əraziyə baxış keçirilib

Noyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun rəhbərliyi ilə Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və nazirliyin aidiyyəti vəzifəli şəxsləri, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli noyabrın 25-də Bakı şəhəri Səbail rayonu ərazisində yerləşən "Bibiheybət" məscidinin yaxınlığında baş vermiş torpaq sürüşməsi ilə əlaqədar hadisə yerində olublar.

Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əraziyə baxış keçirildikdən sonra mütəxəssislərin də iştirakı ilə operativ müşavirə keçirilib, sürüşmənin mümkün səbəbləri, mövcud vəziyyət müzakirə edilib. Məsələ ilə bağlı hərtərəfli araşdırmanın aparılması, sürüşmənin nəticələrinin qısa müddətdə aradan qaldırılması və digər zəruri tədbirlərin görülməsi üçün aidiyyəti qurumlara müvafiq göstərişlər verilib.







# *Məzahir PƏNAHOV:* "Bu il keçiriləcək bələdiyyə seçkilərində siyasi partiyalar fəallıq göstərirlər"

"Bu il keçiriləcək bələdiyyə seçkilərində 13 siyasi partiya iştirak edəcək. Seçkidə iştirak etmək istəyən həmin siyasi partiyaların irəli sürdüyü namizədlər qeydə alınıb".

AZƏRTAC xəbər verir ki, bu fikirləri jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov ifadə edib.

MSK sədri bildirib ki, seçkilərə qatılan və qeydə alınan namizədlərin təxminən üçdəbiri siyasi partiyaların namizədləridir.

"Seçkilərdə siyasi partiyaların fəallığı bizi sevindirir. Hesab edirəm ki, bu, çox yaxşı göstəricidir" deyə M.Pənahov əlavə edib.

Onun sözlərinə görə, 1606 bələdiyyəyə 15 min 156 bələdiyyə üzvü seçilməlidir. Bələdiyyə seçkiləri ilə bağlı 42 mindən artıq müraciət olub. İmza vərəqələrini qaytaranların hamısı qeydə alınıb.

Məzahir Pənahov qeyd edib ki, təxminən 50-60 namizəd qeydə alındıqdan sonra öz ərizəsi ilə namizədliyini geri götürüb. Bülletenlərə 41 min 800-dən artıq namizədin adı daxil olunacaq. Əgər qalan müddətdə hansısa namizəd iştirakdan imtina etsə, bununla bağlı rəsmi şəkildə müraciət etməlidir. Bülletenlərdə həmin namizədlərin adının üzərindən xətt çəkiləcək.

MSK sədri bildirib ki, bələdiyyə seçkiləri ilə bağlı proseslər Seçki Məcəlləsinin tələblərinə uyğun şəkildə həyata keçirilir. O əlavə edib ki, noyabrın 30-dan etibarən namizədlərin təşviqat mərhələsinə başlanılıb.

"Qanunvericiliyin tələblərinə uyğun olaraq onlara açıq və qapalı yerlər ayrılıb. Artıq həmin ünvanlar dairə seçki komissiyalarının lövhələrində asılıb və MSK tərəfindən də nəzarətdədir. Təxminən 3500 belə ünvan var ki, onların 1700-dən çoxu açıq, qalanları isə qapalı məkanlardır. Hesab edirəm ki, namizədlərə bütün imkanları yaratmışıq" deyə Məzahir Pənahov vurğulayıb.

# Neft Fondunun 2020-ci il üçün büdcə layihəsinə Hesablama Palatasının rəyi müzakirə olunub

Hesablama Palatasının kollegiya iclasında Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci il üçün büdcəsinin layihəsinə palatanın rəyi müzakirə olunub.

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, rəydə Neft Fondunun 2020-ci il üçün büdcə layihəsi, habelə fondun vəsaitinin 2020-ci ildə istifadəsinin əsas istiqamətləri (proqramı) və fondun 2020-ci ildə idarə edilməsi ilə bağlı xərclər smetasının layihələri məqbul hesab edilib, onların təsdiqlənməsi barədə müvafiq fərman layihəsinin Dövlət Neft Fondunun Müşahidə Şurasına təqdim edilməsi üçün fonda göndərilməsi tövsiyə edilib.

Kollegiya iclasında Vergilər Nazirliyinin 12 saylı Ərazi Vergilər Baş İdarəsində inzibatçılığın təşkili vəziyyətinə, Sabunçu Rayon İcra Hakimiyyətinə dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinə, Mədəniyyət Nazirliyinin 2017-2018-ci illər üzrə maliyyə hesabatlarına dair həyata keçirilmiş nəzarət tədbirləri üzrə auditor hesabatları müzakirə olunub.

Kollegiya iclasında nəzarət tədbirləri üzrə auditor hesabatları barədə müvafiq qərarlar qəbul olunub. Nəzarət tədbirlərinin nəticələri üzrə qərarların icrasını təmin etmək məqsədilə aidiyyəti qurumlara kollegiya qərarlarının və auditor hesabatlarının göndərilməsi, Milli Məclisə müvafiq məlumatın təqdim olunması qərara alınıb.

İclasda, həmçinin iş planı ilə nəzərdə tutulmuş bir kənar dövlət maliyyə nəzarəti tədbiri ilə bağlı proqram müzakirə olunaraq təsdiqlənib, bir kənar dövlət maliyyə nəzarəti tədbiri ilə bağlı proqramda dəyişiklik edilməsi, Hesablama Palatası kollegiyasının 2019-cu il 11 oktyabr tarixli qərarı ilə təsdiqlənmiş "Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən inzibati xətalar haqqında işlər üzrə icraatın aparılması Qaydaları"nın qəbul edilməsi ilə əlaqədar olaraq palatanın digər metodiki sənədlərinin həmin qaydalara uyğunlaşdırılması üzrə məsələlər, eləcə də "Kollegiya qərarlarının və auditor hesabatlarının hüquqi təhlili üzrə Arayış"ın layihəsi müzakirə olunaraq təsdiqlənib.

# Azərbaycan Kardiologiya Cəmiyyətinin VIII Milli Konqresi keçirilir



Bakı Konqres Mərkəzində Azərbaycan Kardiologiya Cəmiyyətinin (AKC) növbəti illik VIII Milli Konqresi keçirilir.

AZƏRTAC xəbər verir ki, konqresdə 800-ə yaxın yerli mütəxəssislərlə yanaşı, Türkiyə, Rusiya, Mərkəzi Asiya, Balkan ölkələrindən 30-a yaxın ekspert, spiker və qonaq iştirak edir.

Konfransı giriş sözü ilə açan Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri, professor Tofiq Cahangirov bildirib ki, AKC 2009-cu il martın 19-da yaranıb və bundan cəmi 2 il sonra, 2011-ci il avqustun 30-da onun idarə heyəti üzvlərinin məqsədyönlü fəaliyyəti, gərgin əməyi və səyi nəticəsində böyük uğurla Avropa Kardiologiya ailəsinin sayca 54-cü həqiqi üzvü seçilib. Diqqətə çatdırılıb ki, birliyin əsas məqsədi ölkədə ürək-damar xəstəliklərinin (ÜDX) profilaktikası, diaqnostikası və müalicəsinin dünya səviyyəsinə çatdırılmasına kömək etmək, kardioloqların bu sahədə biliklərini artırmaq və dünya kardiologiya elminin nailiyyətlərini Azərbaycanda təbliğ etmək, respublikada ürək-damar xəstəliklərinin yayılması səbəbini öyrənmək, kardioloqların peşəkarlıq səviyyəsini artırmaq, Azərbaycan kardioloqları ilə Avropa və digər ölkələrin kardioloqları arasında əməkdaşlığın inkişafına kömək etməkdir: "Hamımıza yaxşı məlumdur ki, qarşıya qoyulmuş mühüm vəzifələrin bir tərəfdən yüksək effektivliklə həyata keçirilməsi, digər tərəfdən isə tibb elminin son inkişaf nailiyyətlərinin təhlilinə və aparılan müzakirələrin geniş auditoriyaya çatdırılmasına daim böyük ehtiyac duyulur. Halhazırda yaşadığımız XXI əsrdə bütün dünyada böyük problemə çevrilən ÜDX-dən milyonlarla insan əziyyət çəkir. VIII Milli Konqresin elmi proqramı aktual mövzuları, o cümlədən ÜDX-nin epidemiologiyası, proqnozu, ÜDX kəskinləşmələri, ürək çatışmazlığı, ritm və keçiricilik pozulmaları, hipertenziya, komorbid hallar və sair problemlərin həllinə dair yenilikləri, eləcə də invaziv kardiologiyanın nailiyyətlərini özündə cəmləşdirir. İlk gün gənc kardioloqlar üçün ürəyin anatomiya kursu, təkmilelektrokardioqrafiya (EKQ) kursu, qapaq xəstəlikləri kursu təşkil edilib. Keçən illərdən fərqli olaraq bu il Azərbaycan Kardiologiya Cəmiyyəti Avropa Kardiologiya Cəmiyyətinin Ürək Çatışmazlığı Assosiasiyası (ESC/HFA), Rusiya Kardiologiya Cəmiyyəti, Türkiyə Kardioloji Dərnəyi ilə birlikdə ortaq sessiyalar keçirəcək. Yeniliklərdən biri də orta tibb personalının sessiyasının təşkilidir. Konfrans üçün göndərilən tezislər müvafiq komitə tərəfindən təsdiqləndikdən sonra tezis materialları kimi dərc olunacaq".

Konqres öz işini plenar sessiyalarla davam etdirib, Azərbaycan və xarici ölkə mütəxəssislərinin məruzələri dinlənilib.

Qeyd edək ki, Azərbaycan Kardiologiya Cəmiyyətinin VIII Milli Konqresi Səhiyyə Nazirliyinin Elmi-Tibbi Şurası tərəfindən akkreditə olunub və Davamlı Tibb Təhsili (DTT) balla qiymətləndirilib.

# Daxili İşlər naziri Daxili Qoşunların Sumqayıtdakı hərbi hissəsində olub





Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov polisin fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar müraciət etmiş vətəndaşları qəbul etmək üçün noyabrın 29-da Sumqayıta səfəri çərçivəsində Daxili Qoşunların hərbi hissəsində də olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik V.Eyvazov nazir müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədovun müşayiəti ilə hərbi qulluqçuların kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu, həmçinin silah təminatı, avtomobil və zirehli texnika parkı, ərazidə aparılan abadlıq, quruculuq işləri ilə yaxından maraqlanıb.

Sonra sıra meydanında düzülmüş şəxsi heyət qarşısında çıxış edən Daxili İşlər naziri V.Eyvazov müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı problemlər, torpaqlarımızın işğalı, Ulu Öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində, o cümlədən daxili işlər orqanlarında aparılan islahatlar, cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində əldə edilmiş müsbət nəticələr barədə məlumat verib.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Daxili İşlər Nazirliyinin və onun ayrılmaz hissəsi olan Daxili Qoşunların ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizənin səmərəli təşkilində, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının təminində rolunu və fədakar xidmətini hər zaman yüksək qiymətləndirdiyini vurğulayan nazir daxili işlər orqanlarının zəruri avadanlıq və texnika ilə təchizatına böyük diqqət yetirildiyini, müasir tələblərə cavab verən texniki və xüsusi vasitələrlə təmin olunduğunu, xidmət şəraitinin ildən-ilə daha da yaxşılaşdırıldığını bildirib.

Hərbi qulluqçulara tapşırıq və tövsiyələrini verən nazir Vilayət Eyvazov əmin olduğunu bildirib ki, şəxsi heyət göstərilən ali diqqət və qayğıya cavab olaraq sabitliyin, əmin-amanlığın etibarlı qorunmasına, cinayətkarlıqla qətiyyətli mübarizə işinə öz nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək.

Sonda hərbi hissənin şəxsi heyəti təntənəli marşın sədaları altında tribuna önündən keçib.

# Bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb

Dekabrın 23-də ölkəmizdə keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyası seçki bülletenlərinin çapına başlayıb.

AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov və komissiya üzvləri bu məqsədlə noyabrın 30-da Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsində keçirilən tədbirdə iştirak ediblər. Mətbəədə yaradılan şərait və proseslə yaxından tanış olan sədr Məzahir Pənahov seçki bülletenlərinin çapı və aşağı seçki komissiyalarına verilməsi ilə bağlı qanunvericiliyin tələblərinə dəqiqliklə əməl edilməsi üçün öz tövsiyələrini verib.



Bütün seçki subyektləri üçün tamamilə açıq və şəffaf həyata keçirilən çap prosesi barədə media nümayəndələrinə açıqlamasında MSK sədri bildirib ki, seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər MSK-nın qərarına əsasən müəyyənləşdirilib. Seçki keçiriləcək 1606 bələdiyyənin hər biri üçün ayrıca olmaqla, ümumilikdə 5 020 287 (beş milyon iyirmi min iki yüz səksən yeddi) ədəd seçki bülleteninin çap olunması nəzərdə tutulub.

Artıq namizədliyin qeydə alınması mərhələsi tamamilə başa çatmış bələdiyyələr üzrə bülletenlərin çapına başlanılıb. Seçki bülletenləri çap edildikdən sonra qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına, dairə seçki komissiyalarından isə məntəqə seçki komissiyalarına verilir.

MSK sədri kütləvi informasiya vasitələri üçün təşkil olunan brifinqdə bələdiyyə seçkilərinin yüksək səviyyədə təşkil olunub azad, ədalətli və şəffaf keçirilməsi üçün həyata keçirilən layihələr və son hazırlıq işləri barədə də ətraflı məlumat verib, jurnalistlərin suallarını cavablandırıb.

Qeyd edək ki, seçki bülletenlərinin çap olunması prosesinin mühafizəsi Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilir.

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin dekabr ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**4 dekabr 2019-cu il**

1. Sumqayıt şəhəri
2. Şabran rayonu
3. Füzuli rayonu
4. Salyan rayonu
5. Xocalı rayonu

**18 dekabr 2019-cu il**

1. Masallı rayonu
2. Balakən rayonu
3. Göygöl rayonu
4. İsmayıllı rayonu
5. Tovuz rayonu

**Qeyd:** *qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.*

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi Kürdəmir, Ucar və Zərdab rayonlarında vətəndaşlarla görüşüb

Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Kürdəmir rayonunda rayonun sakinlərini fərdi qaydada qəbul edib.

Qəbul zamanı vətəndaşlar sosial təminat növləri üzrə hüququn müəyyən edilməsi, məşğulluğun təminatı, aktiv məşğulluq tədbirlərinə, özünüməşğulluq və peşə hazırlığı proqramlarına, bərpa müalicəsinə cəlbolunma, əlilliyin qiymətləndirilməsi, reabilitasiya vasitələri ilə təminat, əmək hüquqlarının müdafiəsi və s. məsələlərlə bağlı müraciət ediblər. Bütün müraciətlər nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinin iştirakı ilə araşdırılaraq cavablandırılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov Ucar rayonunda və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli Zərdab rayonunda vətəndaşları fərdi qaydada qəbul ediblər. Hər iki rayonda da vətəndaşların müraciətləri obyektiv şəkildə araşdırılaraq cavablandırılıb, müraciətlərdə əksini tapan məsələlərlə əlaqədar tədbirlər görülüb.

***AZƏRTAC***

# İslahatlar idarəetməyə yeni keyfiyyət dəyişiklikləri gətirir



Əvvəli 1-ci səh.

ARDNF 20 il əvvəl Ulu Öndər Heydər Əliyevin tarixi qərarı ilə yaradılıb. Onun yaradılmasının təşəbbüskarı isə cənab İlham Əliyev olub. Dövlət başçısı həmin günləri belə xatırlayır: "Mənim təşəbbüsümlə Azərbaycan dövlət qurumlarının nümayəndələrindən ibarət heyət dünyanın müxtəlif ölkələrinə ezam edilmiş və orada oxşar fondların fəaliyyəti ilə tanış olmuşdur. Bundan sonra biz dünyada mövcud olan ən şəffaf və ən işlək model üzərində dayanıb onu qəbul etmişik və ötən 20 ilin təcrübəsi onu göstərir ki, bu, yeganə düzgün qərar idi".

Yarandığı gündən indiyədək ARDNF-nin vəsaitləri, yəni orada toplanan - neftdən əldə edilmiş və hazırda həm də qazdan daxil olan gəlirlər ölkəmizin ümumi inkişafına böyük töhfələr verib. Azərbaycan dövləti bu vəsaitlər hesabına önəmli sosial layihələr icra edib. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması məhz bu fondun vasitəsilə həyata keçirilir. İndiyədək həmin məqsədlər üçün milyardlarla dollar vəsait xərclənib. Hər il ARDNF-dən büdcəyə edilmiş transferlər hesabına çoxsaylı sosial layihələr gerçəkləşir. Bu, həmçinin maaşların, pensiyaların, müavinətlərin artırılmasına imkan verir.

Azərbaycan üçün strateji əhəmiyyət daşıyan bir sıra sahələri də məhz Neft Fondu maliyyələşdirir. Bunların arasında təhsillə bağlı olan layihələr də var. Belə ki, gənclərimizin dünyanın aparıcı universitetlərində təhsil alması ilə bağlı təşəbbüs bu fond tərəfindən təmin edilib. Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi" və digər nəhəng strateji layihələr, qazma qurğularının tikintisi Dövlət Neft Fondunun vəsaitləri hesabına reallaşıb.

Sevindirici haldır ki, fondun idarəetmədən əldə edilən gəlirləri çoxalır. İlin əvvəlindən bu gəlirlər 4 milyard dollardan çox artıb. Bunun 1,8 milyard dolları məhz idarəetmədən əldə olunub. Bu imkanları fondun uğurlu siyasəti və vəsaitlərin düzgün yerləşdirilməsi yaradıb.

ARDNF-nin eyni zamanda beynəlxalq imici də yüksəkdir. Bir neçə il əvvəl fond BMT-nin mükafatı ilə təltif olunub. Bu qurum nəinki ölkə ərazisində çoxşaxəli layihələr icra edir, eyni zamanda dünyanın aparıcı fondları ilə əməkdaşlıq edir və onlarla birlikdə müxtəlif sərmayə layihələrində iştirak edir. Bu, ilk növbədə, onun nə qədər səmərəli təşkilat olduğunu təsdiqləyir.

Bu gün Azərbaycanın Dövlət Neft Fondu dünyadakı suveren fondlar sırasında ən şəffaf, ən səmərəli işləyən fondlardan biri kimi müsbət imic qazanıb. Odur ki, ARDNF-nin təkcə xəzinə kimi yox, həqiqətən beynəlxalq önəmli təşkilat kimi Azərbaycanın nüfuzuna müsbət təsir göstərməsi ölkəmizin üstünlüklərindən biridir.

Prezident İlham Əliyev ARDNF-nin yeni icraçı direktorunu təyin edərkən təşkilatın qarşısında mühüm vəzifələr dayandığını və onların layiqincə yerinə yetiriləcəyinə əmin olduğunu da bildirib. "Həyat yerində durmur, yeni alətlər meydana çıxır, yeni sərmayə yerləri maraq doğurur. Ona görə siz bu sahədə də çox çevik siyasət aparmalısınız. İndi dünyada iqtisadi inkişaf qeyri-bərabər şəkildə gedir. Bəzi ölkələrin iqtisadiyyatı daha böyük inkişafla artır. Ona görə biz çox çevik siyasət aparmaqla daha çox gəlir əldə etmək üçün ancaq az riskli aktivlərə fikir verməliyik... Əminəm ki, müsbət dinamika davam edəcəkdir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Qarşılıqlı etimada və strateji tərəfdaşlığa söykənən əlaqələr

## İlham ƏLİYEV: "Mehriban Əliyevanın Moskvaya rəsmi səfəri Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi"

Əvvəli 1-ci səh.

Bu mənada prezidentlərin siyasi iradəsi və birgə səyləri iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın genişlənməsi üçün möhkəm zəmin yaradıb və ildən-ilə yüksələn xətt üzrə inkişaf edən dövlətlərarası münasibətlər hazırda strateji səviyyəyə qədər yüksəlib.

Bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan tam müstəqil siyasət yürüdür. Rəsmi Bakı həmişə beynəlxalq məsələlərdə müstəqil mövqe nümayiş etdirir, heç vaxt ölkənin maraqlarına zidd olan razılaşmalara qoşulmur. Eyni münasibəti Azərbaycan dost ölkələrə də göstərir, onları beynəlxalq səviyyədə dəstəkləyir. Müstəqil siyasət yürüdən Azərbaycan son illərdə Qərbin siyasi və iqtisadi sanksiyaları ilə üzləşən Rusiyaya dəstək verib. Ölkəmiz anti-Rusiya xarakterli təşəbbüslərə heç vaxt qoşulmayıb. Dünyanın fövqəldövlətlərindən olan Rusiyada da bunu görür və dəyərləndirirlər.



### Ən ali səviyyədə yüksək siyasi ehtiram nümunəsi

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi səfəri zamanı Moskvada Rusiyanın ali rəhbərliyi - Prezident Vladimir Putin, Rusiya Hökumətinin sədri Dmitri Medvedyev, eləcə də Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşdü. Həm Mehriban Əliyevanın Rusiya rəhbərliyi tərəfindən rəsmi səfərə dəvət olunması, həm də Moskvada keçirilən görüşlərin ali səviyyəsi, Azərbaycanın Birinci vitse-prezidentinin dünyanın ən böyük dövlətlərindən birinin Prezidenti tərəfindən çox böyük ehtiramla qəbul edilməsi iki ölkə arasındakı münasibətlərin ilk növbədə dərin siyasi və strateji məzmununun ən bariz təsdiqidir.

Prezident Vladimir Putin tərəfindən Mehriban Əliyevanın Rusiyanın dövlət mükafatı olan "Dostluq" ordeni ilə təltif edilməsi isə Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyəsinin növbəti təsdiqidir. Bu medal ilk növbədə Mehriban Əliyevanın Rusiya ilə əlaqələrin inkişafına verdiyi töhfələrin qiymətləndirilməsi ilə yanaşı, həm də iki dövlət arasındakı əlaqələrin səmimi xarakterindən xəbər verir.

Azərbaycan Prezidenti İlham Əliyev Mehriban Əliyevanın Rusiyaya rəsmi səfərini və ən ali səviyyələrdə qarşılanmasını yüksək qiymətləndirib. Bu günlərdə Bakıda olan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edən İlham Əliyev deyib: *"Biz bu səfəri çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, beynəlxalq siyasətdə görünməmiş hadisədir, dövlətdə birinci şəxs olmayan adam Prezident tərəfindən, özü də dünyanın aparıcı ölkəsinin Prezidenti və dünya siyasətçiləri arasında bir nömrəli Prezident tərəfindən ən yüksək səviyyədə qəbul edilir. Zənnimcə, bu, təkcə mənim fikrim deyil, rəhbərlərin böyük əksəriyyətinin fikridir. Biz dəvət faktının özünü, münasibətlərin səviyyəsini, Mehriban Əliyevanın şəxsən Prezident tərəfindən ali "Dostluq" ordeni ilə təltif edilməsini və bu təltifdən sonra deyilən sözləri çox yüksək qiymətləndiririk. Biz bütün bunları çox yüksək qiymətləndiririk və əlbəttə, şadıq ki, ölkələrimiz arasında münasibətlər bu cür yüksək səviyyəyə çatıb".*

### İki ölkəni dostluq və mehriban qonşuluq ənənələri bağlayır

Moskvaya səfəri zamanı Birinci vitse-prezident Mehriban Əliyeva TASS agentliyinə, "Rossiyskaya qazeta"ya və "Rossiya-24" telekanalına müsahibəsində iki ölkəni dostluq, mehriban qonşuluq ənənələri bağladığını deyib: *"Azərbaycan ilə Rusiyanı qədim və möhkəm dostluq, mehriban qonşuluq ənənələri bağlayır, ölkələrimiz dinamik inkişaf edir. Bu, dövlətlərarası əlaqələrin genişlənməsi üçün yeni imkanlar yaradır. Siz qeyd etdiyiniz kimi, mənim səfərim dolğun, maraqlı oldu. Əlbəttə, ilk növbədə, Rusiya Federasiyasının Prezidenti, hörmətli Vladimir Vladimiroviç Putin ilə görüşümü qeyd etmək istəyirəm. Bu, bizim ikitərəfli münasibətlərin bir çox aspektlərini müzakirə etmək üçün gözəl fürsət idi. Bu görüş zamanı Rusiya Federasiyasının Prezidenti mənə "Dostluq" ordenini təqdim etdi. Bu mükafatı almaq mənim üçün böyük şərəfdir, mən onu Azərbaycan-Rusiya münasibətlərinin yüksək səviyyəsinin daha bir təsdiqi kimi qiymətləndirirəm. Əlbəttə, şadam ki, bizim strateji tərəfdaşlığımızın inkişafı işində mənim də müəyyən töhfəm var".*

Rusiya paytaxtında X Azərbaycan-Rusiya Regionlararası Forumu da keçirilib. Forumdakı niqtində Mehriban Əliyeva regionlararası əməkdaşlığın ikitərəfli münasibətlərin mühüm tərkib hissəsi olduğunu, Azərbaycanın Rusiyanın 70-dən çox subyekti ilə iqtisadi əlaqə saxladığını bildirib. Diqqətə çatdırıb ki, bu gün ölkələrimiz arasında çoxcəhətli tərəfdaşlıq praktiki olaraq bütün sahələri əhatə edir. Möhkəm ikitərəfli müqavilə-hüquqi baza yaradılıb, 200-dən çox sənəd imzalanıb.

2018-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 19 faiz artaraq 2,6 milyard ABŞ dollarına bərabər olub, cari ilin 9 ayı ərzində isə artım 26 faizə çatıb. İnvestisiya sahəsində də əməkdaşlığımız genişlənir. Ölkəmizdə Rusiya kapitallı 700-ə yaxın müəssisə qeydə alınıb. Azərbaycanda Rusiya investisiyalarının həcmi 4,9 milyard ABŞ dollarına çatıb. Eyni zamanda, respublikamız şimal qonşusuna 1,2 milyard dollar sərmayə yatırıb.

İki ölkənin humanitar əməkdaşlığı isə kifayət qədər çoxşaxəlidir. Bakıda M.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Bu ildən etibarən Azərbaycan Diplomatik Akademiyasının və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun ikili magistr diplomları proqramının birgə icrasına başlanıb. Ölkəmizin 338 məktəbində tədris rus dilində aparılır, Azərbaycanın 14 dövlət ali məktəbində rus bölmələri var. Rusiyada 11 mindən çox azərbaycanlı tələbə təhsil alır.

Mədəniyyət sahəsində də daimi dialoq mövcuddur. İki ölkə arasında mütəmadi olaraq sərgilər, teatr qastrolları, konsertlər, musiqi və kino festivalları təşkil olunur. Artıq 25 ildir ki, irimiqyaslı qarşılıqlı mədəniyyət günləri keçirilir.

Bütövlükdə Birinci vitse-prezident Mehriban Əliyevanın Rusiyaya rəsmi səfər proqramı kifayət qədər zəngin olub. Keçirilən görüşlər və aparılan danışıqlar isə iki ölkə arasındakı əlaqələrin perspektiv inkişafına böyük töhfələr verəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Dünya Azərbaycanın tərəqqisinə heyrandır

## Bunu ölkəmizə gələn xarici vətəndaşlar da təsdiqləyir

**Dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilmişdir. Son illər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır. Bu inkişaf özünü bütün sahələrdə büruzə verir. Ölkəmizin beynəlxalq nüfuzu xeyli artmışdır. Hazırda Azərbaycan dünya miqyasında böyük hörmətə layiqdir.**

Qoşulmama Hərəkatının bu yaxınlarda Bakıda keçirilmiş Zirvə görüşü, Dünya dini liderlərinin II Sammiti bunu bir daha təsdiqləmişdir. Azərbaycan artıq BMT-dən sonra dünya miqyasında ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edir və üç il ərzində sədrliyi davam etdirəcək. Bu sədrlik 120 ölkənin rəyi əsasında yekdil qərarla əldə olunmuşdur. Bu onu göstərir ki, dünya birliyinin ən azı üçdəiki hissəsi Azərbaycanı dəstəkləyir və bizim siyasətimizə böyük qiymət verir.

Eyni zamanda ölkəmizdə uğurlu siyasi islahatlar aparılır. Son illər demokratiyanın inkişafı istiqamətində, insan haqlarının qorunması işində böyük nailiyyətlər qazanılmışdır. Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir.

İqtisadi sahədə Azərbaycanın əldə etdiyi nəticə dünya miqyasında rekord göstəricidir. 15 il ərzində - 2003-2018-ci illərdə iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Bütün digər göstəricilər onu təsdiq edir ki, iqtisadi artım, eyni zamanda vətəndaşların sosial təminatına da müsbət təsir göstərmişdir. Böyük infrastruktur layihələri icra olunmuş, texnoloji inkişaf istiqamətində böyük uğurlar əldə edilmişdir. Azərbaycan indi kosmik klubun üzvüdür. Dünya miqyasında bizim siyasətimizə çox böyük dəstək və rəğbət var. Azərbaycan da özünü çox məsuliyyətli ölkə kimi artıq təsdiqləmişdir.

Ölkəmizdə sosial islahatlar da uğurla aparılır. Son illər energetika, nəqliyyat sahələrində bütün vəzifələr icra edilmişdir.

Azərbaycanda nəqliyyat infrastrukturu müasirləşir.

Dini və etnik müxtəliflik Azərbaycanın böyük sərvətidir. Ölkəmizdə inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır.

Bunu öz çıxışında Azərbaycan Prezidenti İlham Əliyev də təsdiqləmişdir: "Ölkəmizin ümumi inkişafı müsbətdir və mən gələcəkdə hər hansı bir ciddi problem görmürəm. Çünki ölkəmiz siyasi cəhətdən çox möhkəmdir, sabitlik Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir".

Ölkəmizin gündən-günə qüdrətlənməsi və yüksək templərlə inkişafı təbii ki, xarici vətəndaşların diqqətindən də yayınmır. Məsələn, İordaniyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sami Abdullah Ğoşeh deyir: "Azərbaycanda gördüyüm bu möhtəşəm inkişafa, bütün sahələri əhatə edən tərəqqiyə valeh oldum. Əldə olunmuş bu misilsiz, əvəzolunmaz tərəqqinin adamda yaratdığı ilk təəssürat odur ki, həqiqətən Azərbaycan inkişaf etmiş dövlətlərin sırasındadır".

"Azərbaycan lider ölkə olaraq sadəcə danışmaqla yox, çoxkonfessiyalılıq, liderlik nöqteyi-nəzərdən özünün təqdim olunmasında səylərini davam etdirəcək. Biz buraya gələndə özümüzü evimizdəki kimi hiss edirik. Bu, şəxsən İlham Əliyevin rəhbərliyi nəticəsində mümkün olmuşdur". Bu isə Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperin fikirləridir.

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill təəssüratlarını belə bölüşür: "Bakı çox cəhətdən heyrət doğurur. Mən hələ sovet dövründə burada, Bakıda olmuşam və bu şəhər yadımdadır. İndi gördüklərimizi müqayisə etsək, gecə və gündüz qədər fərq var. Bu, əlbəttə, ölkədə həyata keçirilmiş və davam edən böyük inkişafa dəlalət edir. Əlbəttə, Azərbaycan yoxsul ölkə deyil, lakin biz elə nümunələr bilirik ki, pulun olması inkişafa kömək etmir. Burada isə həqiqətən görürük ki, vəsait həyatın daha da yaxşılaşmasına, insanların daha yaxşı yaşamasına sərmayə kimi qoyulur. Bir daha vurğulamaq istərdim ki, təkcə Bakının zahiri görkəmi, əlbəttə, çox böyük tərəqqiyə dəlalət edir".

Bratislava (Slovakiya) arxiyepiskopu Stanislav Zlovenski də ölkəmizdə olmaqdan məmnundur: "Azərbaycan dinlərarası dialoq sahəsində mötəbər tədbirlərin keçirilməsi baxımından nümunəvi ölkədir. Çünki burada müxtəlif xalqların, dinlərin nümayəndələri arasında multikultural və tolerant mühit mövcuddur".

ISESCO-nun baş direktoru Salim bin Mohamməd Əl-Malikin də Azərbaycan haqqında fikirləri ürəkaçandır: "Azərbaycanda mədəni irsin qorunmasına böyük diqqət verilir. Azərbaycan regionun parlaq ulduzudur. Azərbaycanda tarixi irs, mədəni dəyərlər və müasir inkişaf meyillərinin vəhdəti heyranedicidir".

Dövlət müstəqilliyinin bərpasından sonra Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş milli inkişaf strategiyasının uğurla həyata keçirilməsi, müasir dövrün reallıqlarına uyğun olaraq Prezident İlham Əliyevin müəllifliyi və rəhbərliyi ilə reallaşdırılan yeni inkişaf modeli Azərbaycanın hərtərəfli tərəqqisini təmin edir.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# Qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması davam edir

Əvvəli 1-ci səh.

Prezident seçkisi ərəfəsində qaçqın və məcburi köçkünlərlə görüşən cənab İlham Əliyev vəd etdi ki, əgər dövlət başçısı seçilərsə, onun ilk işi ağır şəraitdə, qaçqın düşərgələrində yaşayan məcburi köçkünlərin həyat tərzini yaxşılaşdırmaq olacaq. Bu məqsədlə bütün çadır şəhərciklərini ləğv etdirib onlar üçün hər cür şəraiti olan müasir qəsəbələr saldıracaq. Dövlət başçısı verdiyi sözə sadiq qaldı.

Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses sayəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. Vurğulayaq ki, son 15 ildə Prezident İlham Əliyevin qayğısı sayəsində 54 min 203 ailə, yaxud 272 min nəfərin mənzil-məişət problemi yüksək səviyyədə həll olunub. Bu qayğı sayəsində təkcə ötən ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb.

Ötən il mayın 24-də Prezident İlham Əliyevin iştirakı ilə Bakı şəhərinin Qaradağ rayonunun Lökbatan qəsəbəsində məcburi köçkünlər üçün salınmış 1026 ailəlik müasir tipli "Qobu Park" yaşayış kompleksinin açılış mərasimi də belə qayğının sayəsində mümkün olmuşdur. Hər cür infrastrukturla təchiz edilmiş həmin yaşayış kompleksinə Bakı şəhəri ərazisində zirzəmilərdə və digər tikililərdə yaşayan məcburi köçkün ailələri köçürülmüşdür. Burada təməli qoyulan 1300 mənzilli "Qobu Park-2" yaşayış kompleksinin də inşası davam etdirilərək daha çox ailənin məskunlaşması təmin olunacaq.

Keçən il dekabrın 24-də Prezident İlham Əliyev Abşeron rayonu ərazisində məcburi köçkünlər üçün inşa olunmuş 1001 mənzilli, zəruri infrastrukturla təmin edilmiş çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksinin açılışında da iştirak etmişdir. Həmin il dekabrın 27-də Sumqayıt şəhərində 1005 mənzildən və lazımi infrastrukturdan ibarət məcburi köçkün ailələri üçün salınmış yaşayış kompleksinin açılışı da dövlət başçısının iştirakı ilə keçirilmişdir. Beləliklə, təkcə keçən il Prezidentin qayğısı sayəsində 5923 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin edilib.

Cari ildə də qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün müvafiq tədbirlər görülür. Bu ilin aprel ayında Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün yeni yaşayış kompleksi istifadəyə verilib. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sistemlərinin, eləcə də rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi önəm verilib. Məqsəd bu kateqoriyadan olan insanlar üçün hər cür şəraitin yaradılmasıdır.

Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də xatırlatmalıyıq. Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərin istifadəsinə verilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasında məskunlaşan məcburi köçkün ailələri köçürülüb.

Məcburi köçkünlər üçün salınmış yeni yaşayış komplekslərində 156 məktəb, 6 musiqi və 1 incəsənət məktəbi, 1 mədəniyyət sarayı, 62 mədəniyyət və 63 səhiyyə müəssisəsi, 65 uşaq bağçası, 2 Olimpiya İdman Kompleksi tikilmişdir. 775 kilometr asfalt yol salınmış, 985 kilometr su, 1,8 min kilometr elektrik, 655 kilometr qaz, 78 kilometr rabitə, 62 kilometr istilik, 102 kilometr kanalizasiya xətləri çəkilmiş, 193 kilometr drenaj şəbəkəsi inşa edilmişdir. Eyni zamanda, 866 müxtəlif gücə malik elektrik transformatorları quraşdırılmış, 217 artezian quyusu qazılaraq istifadəyə verilmişdir.

Ümumiyyətlə, ötən ilin sonunadək 58223 ailənin və ya 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılmışdır. Başqa sözlə, indiyədək bu kateqoriyadan olan insanların sosial probleminin həlli üçün 7,1 milyard manat vəsait xərclənmişdir. Dövlət başçısının 2003-2018-ci illərdə yeni salınmış qəsəbələrdə məcburi köçkünlərlə 36 dəfədən çox görüşməsi qaçqın və məcburi köçkünlərə olan böyük diqqətin nəticəsidir.

Dövlət başçısı tərəfindən qaçqın və məcburi köçkünlərə göstərilən qayğı davam edəcək. Prezident İlham Əliyev noyabrın 21-də Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunan təntənəli mərasimdə demişdir: "Məcburi köçkünlər üçün yeni şəhərciklər, evlər tikilir. Bu il 1800 ailə artıq yerləşibdir. Gələn il minimum 3 min köçkün ailəsi yeni evlərə köçürüləcək. Köçkünlər üçün Sumqayıtda evlərin tikintisi bundan sonra da təmin ediləcək ki, yəni evsiz-eşiksiz, pis vəziyyətdə yataqxanalarda, bağçalarda və s. yerlərdə yaşayan köçkünlər yaxşı yeni evlərə köçürülsünlər. Biz bunu edəcəyik".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# “Yerin təki haqqında”, “İstehsalat və məişət tullantıları haqqında”, “Qaz təchizatı haqqında”, “Energetika haqqında” və “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq, “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1175-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 224; 1999, № 8, maddə 476; 2001, № 11, maddələr 673, 696, № 12, maddə 736; 2004, № 7, maddə 505; 2007, № 8, maddə 745, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2016, № 1, maddə 22; 2018, № 5, maddə 849; 2019, № 1, maddə 20) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 6-cı maddənin birinci hissəsinin beşinci abzasında “xüsusi razılıq” sözləri “bu Qanuna və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icazə” sözləri ilə əvəz edilsin;

1.2. 8-ci maddənin ikinci hissəsində “müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada xüsusi razılıq və ya” sözləri “bu Qanuna və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən” sözləri ilə əvəz edilsin;

1.3. 9-cu maddə üzrə:

1.3.1. 1-ci hissənin ikinci və üçüncü abzaslarından “xüsusi razılıqda və ya” sözləri çıxarılsın;

1.3.2. 1-ci hissənin dördüncü abzasından “xüsusi razılığa və ya” sözləri çıxarılsın;

1.3.3. 1-ci hissənin beşinci abzasında “xüsusi razılıqda” sözləri “icazədə” sözü ilə əvəz edilsin;

1.3.4. 1-ci hissənin altıncı abzasından “xüsusi razılığa uyğun” sözləri çıxarılsın;

1.3.5. 1-ci hissənin yeddinci abzasından “xüsusi razılıq və ya” sözləri çıxarılsın, həmin abzasda hər iki halda “xüsusi razılıq” sözləri “icazə” sözü ilə, “müvafiq icra hakimiyyəti orqanına” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin;

1.3.6. 1-ci hissənin səkkizinci abzasından və 2-ci hissənin on üçüncü abzasından “xüsusi razılıq və ya” sözləri çıxarılsın;

1.4. 10-cu maddə üzrə:

1.4.1. birinci hissə aşağıdakı redaksiyada verilsin:

“Yer təki sahəsi istifadəçisinə yerin təki sahəsində faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuları tikmək və istismar etmək üçün icazə bu Qanunda və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sənədlər əsasında “Dağ-mədən ayırması” statusunun müəyyən edilməsi şəklində verilir.”;

1.4.2. ikinci hissədə “yerin təkindən istifadəyə xüsusi razılıq” sözləri “dağ-mədən ayırması statusu” sözləri ilə əvəz edilsin;

1.4.3. üçüncü hissədə “müvafiq icra hakimiyyəti orqanları” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə, “xüsusi razılığa” sözləri “dağ-mədən ayırması statusuna” sözləri ilə əvəz edilsin və həmin hissəyə “hazırlandıqdan,” sözündən əvvəl “və “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi” sözləri və aşağıdakı məzmunda ikinci-beşinci cümlələr əlavə edilsin:

“Ətraf mühitə təsirin qiymətləndirilməsi sənədinə geoloji və hidrogeoloji əsaslandırma məlumatları da əlavə edilməlidir. Faydalı qazıntıların çıxarılması və bunlarla əlaqədar olmayan işlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport), ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişikliklər edilir. Bu sahədə fəaliyyət zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır. Bu sahədə fəaliyyətə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərin transsərhəd təsirlərinin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll olunur.”;

1.4.4. dördüncü hissənin ikinci cümləsinə “sahələrə” sözündən sonra “bu Qanun və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada” sözləri əlavə edilsin və həmin hissədə “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.4.5. beşinci hissənin ikinci cümləsindən “xüsusi razılıqda” sözləri çıxarılsın;

1.5. 12-ci maddənin altıncı hissəsindən “xüsusi razılıq və ya” sözləri çıxarılsın;

1.6. 13-cü maddə üzrə:

1.6.1. birinci hissədən “xüsusi razılıq və ya” sözləri çıxarılsın, həmin hissədə “qanunvericiliklə” sözü “bu Qanun və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə” sözləri ilə və “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.6.2. ikinci hissənin ikinci cümləsində “istisna hallarda müvafiq icra hakimiyyəti orqanının qərarı əsasında” sözləri “siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən hallarda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən” sözləri ilə əvəz edilsin;

1.6.3. üçüncü hissədə “Xüsusi razılıq və ya icazə” sözləri “İcazə” sözü ilə əvəz edilsin;

1.6.4. dördüncü hissədən “xüsusi razılığa və ya” sözləri çıxarılsın;

1.6.5. altıncı hissədən “xüsusi razılıq və ya” sözləri çıxarılsın;

1.6.6. yeddinci hissənin birinci cümləsində “Xüsusi razılıq və ya icazə müvafiq icra hakimiyyəti orqanının” sözləri “İcazə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)” sözləri ilə və ikinci cümləsində “xüsusi razılıq” sözləri “icazə” sözü ilə əvəz edilsin;

1.7. 14-cü maddə üzrə:

1.7.1. adından “dövlət xüsusi razılıq və ya” sözləri çıxarılsın;

1.7.2. birinci hissədə “Xüsusi razılıq və ya icazə” sözləri “İcazə” sözü ilə və “xüsusi razılıqlar” sözləri “icazələr” sözü ilə əvəz edilsin;

1.7.3. ikinci hissənin birinci abzasında “Xüsusi razılıq və ya icazə” sözləri “İcazə” sözü ilə əvəz edilsin;

1.7.4. ikinci hissənin dördüncü və altıncı abzaslarından “xüsusi razılıq və ya” sözləri çıxarılsın;

1.8. 15-ci maddə üzrə:

1.8.1. birinci hissənin üçüncü abzasından “xüsusi razılıq və ya” sözləri çıxarılsın;

1.8.2. üçüncü hissədə “Müvafiq icra hakimiyyəti orqanı” sözləri “Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.9. 16-cı və 17-ci maddələrin birinci hissələrində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.10. 18-ci, 19-cu və 20-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**“Maddə 18. Yerin təkindən istifadə hüququnun dayandırılmasının və ləğvinin əsasları**

Yerin təkindən istifadə hüququ aşağıdakı hallarda dayandırılır:

1) bu Qanunun 21-ci maddəsinin tələbləri pozulduqda;

2) yer təkinin istifadəçisi yerin təkindən istifadə qaydasını təqvim ili ərzində pozarsa;

3) fors-major vəziyyəti (təbii fəlakətlər, hərbi əməliyyatlar və sairə) yaranarsa;

4) yer təkinin istifadəçisi icazədə göstərilən müddətdə yerin təkindən nəzərdə tutulan həcmdə istifadəyə başlamazsa;

5) “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25.1-ci maddəsində nəzərdə tutulmuş hallarda.

Yerin təkindən istifadə hüququ “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 26.1-ci maddəsində nəzərdə tutulmuş hallarda ləğv edilir.

**Maddə 19. Yerin təkindən istifadə hüququnun dayandırılması, ləğvi və yenidən rəsmiləşdirilməsi qaydası**

Yerin təkindən istifadə hüququnun dayandırılması “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Yerin təkindən istifadə bu Qanunun 18-ci maddəsinin birinci hissəsinin 1-ci və 3-cü bəndlərində nəzərdə tutulmuş hallarda dayandırıldıqda, yer təki sahəsinin konservasiyasına və ya ləğvinə çəkilən xərclər hüquqi və fiziki şəxslərin təqsiri olmadığı hallarda dövlət tərəfindən ödənilir. Əgər yerin təkindən istifadə bu Qanunun 18-ci maddəsinin birinci hissəsinin 1-ci (hüquqi və fiziki şəxsin təqsiri olduğu halda) və 2-ci bəndlərində, “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25.1.2-ci maddəsində göstərilmiş səbəblərə görə və ya yer təki istifadəçisinin təşəbbüsü ilə dayandırılarsa, yer təki sahəsinin konservasiyasına və ya ləğvinə çəkilən xərclər yer təkinin istifadəçisi tərəfindən ödənilir.

İcazə sahibi yerin təkindən istifadədən imtina etdikdə, icazəni vermiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanı (qurumu) azı 6 ay əvvəl rəsmən xəbərdar etməlidir.

Yerin təkindən istifadə hüququnun dayandırılmasına səbəb olan hallar aradan qaldırıldığı təqdirdə bu hüquq “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25.5-ci maddəsində nəzərdə tutulmuş qaydada bərpa olunur.

Yerin təkindən istifadə hüququnun ləğvi “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 26-cı maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Bu Qanunun 18-ci maddəsinin birinci hissəsinin 2-ci, 4-cü bəndlərində və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 25.1.2-ci maddəsində göstərilən hallarda xəbərdarlıqdan sonra üç ay müddətində onlar aradan qaldırılmazsa, yerin təkindən istifadə hüququnun ləğvi haqqında qərar qəbul edilir.

Yerin təkindən istifadə hüququnun yenidən rəsmiləşdirilməsi “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 23-cü maddəsində nəzərdə tutulmuş hallarda və qaydada həyata keçirilir.

**Maddə 20. Yerin təkindən istifadə hüququ verən icazənin qüvvəsi**

Yerin təkindən istifadə hüququ verən icazənin sahibi icazədən yalnız özü istifadə edə bilər və onu başqa şəxsə verə bilməz. Yerin təkindən istifadə hüququ verən icazənin qüvvəsi icazə sahibinin təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərə, habelə icazənin sahibi ilə birgə fəaliyyət, o cümlədən onunla əməkdaşlıq barədə müqavilə əsasında fəaliyyət göstərən başqa şəxslərə şamil edilmir.”;

1.11. 21-ci maddənin ikinci hissəsindən “məhdudlaşdırıla,” sözü çıxarılsın, həmin hissədə, 22-ci maddənin ikinci və yeddinci hissələrində, 23-cü maddənin birinci və ikinci hissələrində ismin müvafiq hallarında “müvafiq icra hakimiyyəti orqanı” sözləri ismin müvafiq hallarında “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.12. 24-cü maddə üzrə:

1.12.1. birinci hissədə “Xüsusi razılığın və ya icazə” sözləri “İcazənin” sözü ilə əvəz edilsin;

1.12.2. beşinci hissədə “müvafiq icra hakimiyyəti orqanları” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.13. 25-ci maddənin ikinci hissəsindən “xüsusi razılıq və ya” sözləri çıxarılsın;

1.14. 27-ci maddənin ikinci hissəsində, 30-cu maddənin dördüncü hissəsində, 32-ci maddənin beşinci və yeddinci hissələrində, 33-cü maddənin dördüncü hissəsində və 34-cü maddənin ikinci hissəsində ismin müvafiq hallarında “müvafiq icra hakimiyyəti orqanı” sözləri ismin müvafiq hallarında “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.15. 35-ci maddənin ikinci hissəsindən “xüsusi razılıq və ya” sözləri çıxarılsın;

1.16. 36-cı maddə üzrə:

1.16.1. ikinci və üçüncü hissələrdə “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.16.2. dördüncü hissədə “yaratdığı quruma” sözləri “müəyyən etdiyi orqana (quruma)” sözləri ilə, “müvafiq icra hakimiyyəti orqanının” (ikinci halda) sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)” sözləri ilə əvəz edilsin;

1.17. 37-ci və 38-ci maddələrin ikinci hissələrində ismin müvafiq hallarında “müvafiq icra hakimiyyəti orqanı” sözləri ismin müvafiq hallarında “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.18. 39-cu maddənin ikinci hissəsinin ikinci abzası ləğv edilsin;

1.19. 43-cü maddənin ikinci hissəsi ləğv edilsin;

1.20. 45-ci maddənin ikinci hissəsindən “xüsusi razılıq və ya icazə verən” sözləri çıxarılsın və həmin hissədə “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

1.21. 46-cı maddənin birinci hissəsinin on üçüncü abzasından “xüsusi razılıq və ya” sözləri çıxarılsın.

**Maddə 2.** “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 606; 2002, № 4 (I kitab), maddə 165; 2007, № 7, maddə 709, № 10, maddə 938; 2008, № 6, maddə 460; 2012, № 7, maddə 648; 2017, № 6, maddə 1017; 2018, № 2, maddə 144; 2019, № 1, maddələr 20, 43) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci maddə üzrə:

2.1.1. birinci abzasda “dövlət hakimiyyət orqanlarının” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)” sözləri ilə əvəz edilsin;

2.1.2. səkkizinci abzasın əvvəlinə “təhlükəli və təhlükəsiz tullantıların zərərsizləşdirilməsi, emalı müəssisələrinin, habelə bu məqsədlə qurğuların, poliqonların tikinti layihələrinin “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hazırlanmış ətraf mühitə təsirinin qiymətləndirilməsi (ƏMTQ) sənədlərinin” sözləri əlavə edilsin;

2.1.3. onuncu abzasa “tullantılarla” sözündən əvvəl “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada” sözləri əlavə edilsin və həmin abzasda “xüsusi razılıq” sözləri “lisenziya və icazə” sözləri ilə əvəz edilsin;

2.1.4. iyirminci abzasa “sertifikatlaşdırılmasının” sözündən əvvəl “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurum tərəfindən” sözləri əlavə edilsin;

2.2. 6-cı maddənin üçüncü hissəsində “mövcud qanunvericiliyə əsasən müvafiq icra hakimiyyəti orqanlarının icazəsi” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi dövlət ekoloji ekspertizasının müsbət rəyi” sözləri ilə əvəz edilsin;

2.3. 8-ci maddənin 1-ci hissəsinin üçüncü abzasında “qanunvericiliklə nəzərdə tutulmuş hallarda” sözləri “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq” sözləri ilə, “xüsusi razılıq” sözləri “lisenziya və icazə” sözləri ilə əvəz edilsin;

2.4. 12-3-cü maddəyə aşağıdakı məzmunda beşinci hissə əlavə edilsin:

“Toksiki istehsalat tullantılarının utilizasiyası və zərərsizləşdirilməsi “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada verilən lisenziya əsasında həyata keçirilir.”;

2.5. 14-cü maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Tullantıların emalı, basdırılması və ya saxlanılması üçün Azərbaycan Respublikasına idxalı, ixracı və tranzit daşımaları “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada həyata keçirilir.”;

2.6. 15-ci maddənin ikinci hissəsinin onuncu abzası aşağıdakı redaksiyada verilsin:

“təhlükəli və təhlükəsiz tullantıların zərərsizləşdirilməsi, emalı müəssisələrinin, habelə bu məqsədlə qurğuların, poliqonların layihələrinin ətraf mühitə təsirin qiymətləndirilməsinə və strateji ekoloji qiymətləndirməyə dövlət nəzarətinin təşkil edilməsi, əhalinin sağlamlığı və ətraf mühit üçün potensial təhlükə yaradan fəaliyyətin dayandırılması və ona xitam verilməsi barədə qərar qəbul edilməsi;”;

2.7. 19-cu maddənin ikinci hissəsində “qanunvericilikdə müəyyən olunan qaydada” sözləri “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq” sözləri ilə əvəz edilsin.

**Maddə 3.** “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 563; 2004, № 7, maddə 505; 2007, № 5, maddə 442; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 262, № 12, maddə 1091; 2015, № 11, maddə 1251; 2016, № 12, maddə 1991; 2017, № 6, maddə 1018; 2018, № 3, maddə 380, № 4, maddə 634) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü maddənin 3-cü hissəsindən (hər iki halda) “xüsusi” sözü çıxarılsın;

3.2. 5-ci maddə üzrə:

3.2.1. 1-ci hissədən “xüsusi” sözü çıxarılsın;

3.2.2. 3-cü hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Sənaye qaz qurğusunun istismarına icazə qaz təchizatı sahəsində fəaliyyət göstərən şəxsə verilir.”;

3.2.3. 3-cü hissənin ikinci cümləsində “Xüsusi icazə” sözləri “İcazə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada və” sözləri ilə əvəz edilsin və həmin hissənin üçüncü cümləsi çıxarılsın;

3.3. 7-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“Maddə 7. Qaz təchizatı sahəsində fəaliyyət**

1. Qaz təchizatı sahəsində aşağıdakı işlər icazə əsasında həyata keçirilir:

1.1. qazın istehsalı və təbii qazın emalı;

1.2. qazın nəqli;

1.3. qazın paylanması;

1.4. yeraltı qaz anbarlarının işlənməsi, tikilməsi və istismarı;

1.5. sənaye qaz qurğusunun istismarı.

2. Bu maddənin 1-ci hissəsində göstərilən icazələrin verilməsi bu Qanuna və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

3. Bu maddənin 1-ci hissəsində göstərilən icazələr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilir və icazə alınması üçün ərizəyə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.2.1-18.2.4-cü maddələrində göstərilən sənədlərlə yanaşı, aşağıdakı sənədlər də əlavə olunur:

3.1. nəzərdə tutulan fəaliyyətin əsas göstəricilərinin təsviri;

3.2. qaz qurğularının, müvafiq avadanlıqların sənədləri, sifarişçinin və onun işçilərinin peşə ixtisasları;

3.3. ictimai təhlükəsizlik haqqında memorandum;

3.4. nəzərdə tutulan fəaliyyətlə məşğul olan şəxslərin sağlamlığının və təhlükəsizliyinin təmin olunması qaydaları üzrə tələb olunan sənədlər;

3.5. qazdan səmərəli istifadə haqqında sənədlər;

3.6. ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında sənəd.

4. Qaz təchizatı sahəsində sınaq işləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) və ya qaz ekspertləri tərəfindən həyata keçirilir.”;

3.4. 8-ci maddə üzrə:

3.4.1. 1-ci hissədə “bu Qanunun 7-ci maddəsinə uyğun olaraq verilən xüsusi icazə əsasında fiziki və hüquqi şəxslər (özəl və dövlət müəssisələri, laboratoriyalar və institutlar)” sözləri “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar” sözləri ilə əvəz edilsin;

3.4.2. 2-ci hissədə “xüsusi icazə” sözləri “akkreditasiya attestatı” sözləri ilə əvəz edilsin;

3.4.3. 4-cü hissədə “xüsusi icazədə və ya qərarlarda” sözləri “akkreditasiya attestatında” sözləri ilə əvəz edilsin;

3.4.4. 5-ci hissənin ikinci cümləsində “xüsusi icazə verdiyi fəaliyyəti” sözləri “akkreditasiya attestatını” sözləri ilə əvəz edilsin və həmin hissənin üçüncü cümləsi çıxarılsın;

3.5. 9-cu maddə üzrə:

3.5.1. 1-ci, 2-ci və 3-cü hissələrdən “xüsusi” sözü çıxarılsın;

3.5.2. 4-cü hissədə “Xüsusi icazədə” sözləri “İcazədə” sözü ilə əvəz edilsin;

3.6. 12-ci maddənin 4-cü hissəsindən “xüsusi” sözü çıxarılsın;

3.7. 14-cü maddə üzrə:

3.7.1. 1-ci hissədən “xüsusi” sözü çıxarılsın;

3.7.2. 3-cü hissənin birinci cümləsindən “xüsusi” sözü çıxarılsın və həmin hissənin ikinci cümləsində “Xüsusi icazə” sözləri “İcazə” sözü ilə əvəz edilsin;

3.7.3. 4-cü hissədən (hər üç halda) “xüsusi” sözü çıxarılsın;

3.8. 18-ci maddənin 2-ci hissəsindən “xüsusi” sözü çıxarılsın və həmin maddəyə aşağıdakı məzmunda 3-6-cı hissələr əlavə edilsin:

“3. Qaz emalı zavodlarının, qazın nəqli üçün uzunluğu 20 km və daha çox olan, diametri 500 mm və daha çox olan boru kəmərlərinin, bioqaz elektrik stansiyalarının layihələndirilməsi mərhələsində “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi hazırlanmalı və həmin sənədin dövlət ekoloji ekspertizası keçirilməlidir.

4. Qaz təchizatı sahəsində fəaliyyətlə bağlı mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ƏMTQ sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla müvafiq dəyişikliklər edilir.

5. Qaz təchizatı sahəsində fəaliyyətlə bağlı mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

6. Qaz təchizatı sahəsində fəaliyyətlə bağlı obyektlərin ətraf mühitə təsirinin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə həmin obyektlərin transsərhəd təsirlərinin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll olunur.”.

**Maddə 4.** “Energetika haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 53; 2006, № 8, maddə 657; 2018, № 3, maddə 378) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü maddənin 2-ci hissəsində “xüsusi” sözü “bu Qanuna və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən” sözləri ilə əvəz edilsin;

4.2. 4-cü maddənin 2-ci hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu proqramların “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq strateji ekoloji qiymətləndirilməsi aparılır.”;

4.3. 4-cü fəslin adından “XÜSUSİ” sözü çıxarılsın;

4.4. 9-cu maddə üzrə:

4.4.1. 3-cü və 4-cü hissələr aşağıdakı redaksiyada verilsin:

“3. Energetika sahəsində aşağıdakı fəaliyyət növləri üzrə müqavilələrin bağlanılması və bu Qanuna və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən icazənin alınması üçün ərizəyə aşağıdakı sənədlərlə yanaşı, “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq ətraf mühitə təsirin qiymətləndirilməsi sənədi və həmin sənədin dövlət ekoloji ekspertizasının rəyi də əlavə edilir:

karbohidrogen ehtiyatlarının axtarışı, kəşfiyyatı, işlənilməsi, hasilatı və nəqlinə dair layihələr;

neft və qaz emalı zavodlarının layihələndirilməsi;

neft, qaz və ya kimyəvi məhlulların nəqli üçün uzunluğu 20 km və daha çox, diametri 500 mm və daha çox olan boru kəmərlərinin layihələndirilməsi;

neft, neft-kimya və kimyəvi məhsullar üçün əsas anbar obyektlərinin layihələndirilməsi;

gücü 300 MVt və daha çox olan istilik elektrik stansiyalarının, eləcə də gücü 220 kilovoltdan, uzunluğu 15 km-dən çox olan yüksəkgərginlikli elektrik xətlərinin layihələndirilməsi;

atom elektrik stansiyalarının və nüvə reaktorları olan digər obyektlərin layihələndirilməsi;

gücü 10 MVt-dan çox olan su, günəş, bioqaz, geotermal və digər elektrik stansiyalarının layihələndirilməsi;

gücü 1 MVt-dan çox olan külək elektrik stansiyalarının (külək generatorları parklarının) layihələndirilməsi.

Ətraf mühitə təsirin müvafiq normalara uyğun olaraq aradan qaldırılması üçün tədbirlər fiziki və ya hüquqi şəxs tərəfindən təqdim edilməzsə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müqaviləyə və energetika fəaliyyətinə icazə vermir.

4. Bu maddənin 3-cü hissəsi ilə müəyyən edilən fəaliyyət növləri üzrə layihələrin “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanır və həmin sənədin dövlət ekoloji ekspertizası keçirilir.”;

4.4.2. aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

“5. Bu maddənin 3-cü hissəsi ilə müəyyən edilən fəaliyyət növləri ilə bağlı mövcud obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport), ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, müvafiq dəyişikliklər edilir.

Bu maddənin 3-cü hissəsi ilə müəyyən edilən fəaliyyət növləri ilə bağlı mövcud obyektlərin fəaliyyəti zamanı təbiətdən istifadə şərtləri ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) aparılmalıdır.

Bu maddənin 3-cü hissəsi ilə müəyyən edilən fəaliyyət növləri ilə bağlı obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə həmin obyektlərin transsərhəd təsirlərinin qiymətləndirilməsi məsələləri Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll olunur.”;

4.5. 10-cu maddə üzrə:

4.5.1. adından və 3-cü hissədən “xüsusi” sözü çıxarılsın;

4.5.2. 1-ci hissənin birinci cümləsində “orqanından qanunvericiliklə müəyyən edilmiş qaydada energetika müqaviləsi və ya ərizə əsasında xüsusi” sözləri “orqanının müəyyən etdiyi orqandan (qurumdan) bu Qanuna və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən” sözləri ilə əvəz edilsin və həmin hissədən ikinci cümlə çıxarılsın;

4.5.3. 4-cü hissədə “Xüsusi icazələr” sözləri “İcazələr” sözü ilə əvəz edilsin;

4.5.4. 5-ci hissədə “xüsusi” sözü “bu Qanuna və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilən” sözləri ilə əvəz edilsin;

4.5.5. 6-cı hissə aşağıdakı redaksiyada verilsin:

“6. Fiziki və hüquqi şəxsin fəaliyyəti icazə şərtlərinə uyğun olmadıqda, ona verilən icazə bu Qanunla və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada dayandırıla və ya ləğv edilə bilər.”;

4.5.6. 7-ci hissənin birinci abzasında “Xüsusi icazələrin” sözləri “İcazələrin” sözü ilə əvəz edilsin, həmin hissənin ikinci və dördüncü (ikinci halda) abzaslarından “xüsusi” sözü çıxarılsın, beşinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsində nəzərdə tutulan digər hüquq və vəzifələri həyata keçirmək.”;

4.6. 12-ci maddənin 1-ci hissəsində “xüsusi icazələrdən” sözləri “icazə şərtlərindən” sözləri ilə əvəz edilsin;

4.7. 13-cü maddənin 2-ci hissəsində (birinci halda) “xüsusi” sözü “bu Qanunda və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan” sözləri ilə əvəz edilsin;

4.8. 23-cü maddə üzrə:

4.8.1. 1-ci hissədə “müvafiq icra hakimiyyəti orqanının xüsusi icazəsi ilə” sözləri “tərəflərin qarşılıqlı razılaşması əsasında” sözləri ilə əvəz edilsin;

4.8.2. 2-ci hissədə “Xüsusi icazə olmadıqda” sözləri “Tərəflər qarşılıqlı razılığa gəlmədikdə” sözləri ilə əvəz edilsin;

4.9. 32-ci maddənin 1-ci hissəsindən “xüsusi” sözü çıxarılsın.

**Maddə 5.** “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 633; 2019, № 1, maddə 30, № 6, maddə 990) “3.4 (ikinci halda), 3.5, 3.6, 3.7” rəqəmləri müvafiq olaraq “3.5, 3.6, 3.7, 3.8” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1621-VQD, 1626-VQD nömrəli, 9 iyul tarixli 1636-VQD nömrəli, 12 iyul tarixli 1660-VQD və 1662-VQD nömrəli qanunları) 43.1-ci maddəsinə "438.3," rəqəmlərindən sonra "440-1," rəqəmləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

## "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1683-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1683-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun 36-cı maddəsinin ikinci və üçüncü hissələrində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş orqan (qurum) barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 1-ci hissəsinin yeddinci abzasında, 10-cu maddəsinin 3-cü hissəsinin birinci və üçüncü cümlələrində və 4-cü hissəsinin ikinci cümləsində, 13-cü maddəsinin 1-ci hissəsində, 2-ci hissəsinin ikinci (hər iki halda) cümləsində və 7-ci hissəsinin birinci cümləsində, 15-ci maddəsinin 3-cü hissəsində, 16-cı və 17-ci maddələrinin birinci hissələrində, 19-cu maddəsinin 3-cü hissəsində, 21-ci maddəsinin ikinci hissəsində, 22-ci maddəsinin 2-ci və 7-ci hissələrində, 23-cü maddəsinin birinci və ikinci hissələrində, 24-cü maddəsinin 5-ci hissəsində, 27-ci maddəsinin 2-ci hissəsində, 30-cu maddəsinin 4-cü hissəsində, 32-ci maddəsinin 5-ci və 7-ci hissələrində, 33-cü maddəsinin 4-cü hissəsində, 34-cü maddəsinin 2-ci hissəsində, 36-cı maddəsinin 2-ci, 3-cü və 4-cü (hər iki halda) hissələrində, 37-ci, 38-ci və 45-ci maddələrinin 2-ci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 13-cü maddəsinin 2-ci (birinci halda) hissəsində, 16-cı və 17-ci maddələrinin birinci hissələrində, 32-ci maddəsinin 5-ci hissəsində və 34-cü maddəsinin ikinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.3. həmin Qanunun 13-cü maddəsinin 7-ci hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.4. həmin Qanunun 32-ci maddəsinin 7-ci hissəsində "orqan (qurum)" dedikdə yerin təki haqqında geoloji informasiyadan istifadəyə görə haqqın alınması qaydasının təsdiqinə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, yerin təki haqqında geoloji informasiyadan istifadəyə görə haqqın miqdarının müəyyən edilməsinə münasibətdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;

2.5. həmin Qanunun 9-cu maddəsinin 1-ci hissəsinin yeddinci abzasında, 10-cu maddəsinin 3-cü hissəsinin üçüncü cümləsində və 4-cü hissəsinin ikinci cümləsində, 13-cü maddəsinin 1-ci və 2-ci (ikinci halda) hissələrində, 15-ci maddəsinin 3-cü hissəsində (neftə və qaza münasibətdə Azərbaycan Respublikası Energetika Nazirliyinin iştirakı ilə), 19-cu maddəsinin 3-cü hissəsində, 21-ci maddəsinin 2-ci hissəsində, 27-ci maddəsinin 2-ci hissəsində, 33-cü maddəsinin 4-cü hissəsində, 37-ci və 45-ci maddələrinin 2-ci hissələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.6. həmin Qanunun 22-ci maddəsinin 2-ci hissəsində, 23-cü maddəsinin 2-ci hissəsində, 38-ci maddəsinin 2-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

2.7. həmin Qanunun 22-ci maddəsinin 7-ci hissəsində və 24-cü maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

2.8. həmin Qanunun 10-cu maddəsinin 3-cü hissəsinin birinci cümləsində və 23-cü maddəsinin 1-ci hissəsində "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

2.9. həmin Qanunun 36-cı maddəsinin dördüncü (birinci halda) hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti nəzərdə tutulur;

2.10. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 1-ci hissəsində və 6-cı maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.11. həmin Qanunun 6-cı maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.12. "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinin 3-cü və 4-cü hissələrində, 18-ci maddəsinin 4-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.13. həmin Qanunun 7-ci maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi (yeraltı qaz anbarlarına münasibətdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə) nəzərdə tutulur;

2.14. həmin Qanunun 7-ci maddəsinin 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

2.15. həmin Qanunun 18-ci maddəsinin 4-cü hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.16. "Energetika haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsinin onuncu abzasında və 5-ci hissəsində, 10-cu maddəsinin 1-ci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.17. həmin Qanunun 9-cu maddəsinin 3-cü hissəsinin onuncu abzasında "orqan (qurum)" dedikdə fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ətraf mühitə təsirə münasibətdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə) nəzərdə tutulur;

2.18. həmin Qanunun 9-cu maddəsinin 5-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.19. həmin Qanunun 10-cu maddəsinin 1-ci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Azərbaycan Respublikası Hökuməti ilə Banqladeş Xalq Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Hökuməti ilə Banqladeş Xalq Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında 2019-cu il oktyabrın 26-da Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Banqladeş Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986; Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1616-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 6.3.3-1-ci maddə əlavə edilsin:

"6.3.3-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi siyahı üzrə verdiyi, dayandırdığı, bərpa və ya ləğv etdiyi lisenziyalar və icazələr ilə bağlı bu Qanunun 8.1-ci maddəsində göstərilən məlumatları reyestrdə qeydə alındığı tarixdən 3 iş günü müddətində müvafiq icra hakimiyyəti orqanına göndərir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 yanvar tarixli 1205 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 1, maddə 52) ilə təsdiq edilmiş "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 6.3-1-ci bənd əlavə edilsin:

"6.3-1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi siyahı üzrə bu Əsasnamənin 6.1-ci bəndinə uyğun olaraq verilən, dayandırılan, bərpa və ya ləğv edilən lisenziyalar, onların əlavələri və icazələr barədə Qanunun 8.1-ci maddəsində göstərilən məlumatlar portal tərəfindən real vaxt rejimində Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə göndərilir.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1686-VQD nömrəli Qanununun tətbiqi və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1686-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 6.3.3-1-ci maddəsinə uyğun olaraq, verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat göndərilməli olan lisenziyaların və icazələrin siyahısını üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671, № 12, maddə 2064; 2017, № 4, maddə 532) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.2-ci bəndə "6.3.3-cü maddəsində (birinci halda)," sözlərindən sonra "6.3.3-1-ci maddəsində (birinci halda)," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 2.6-1-ci bənd əlavə edilsin:

"2.6-1. həmin Qanunun 6.3.3-1-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 16 fevral tarixli 386 nömrəli və "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli 869 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli 689 nömrəli Fərmanının icrası məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312; 2019, № 3, maddə 403, № 5, maddə 848) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.35-1-8.35-4-cü bəndlər əlavə edilsin:

"8.35-1. peşə təhsili müəssisələrini idarə etmək və fəaliyyətini əlaqələndirmək məqsədilə məlumat bazası yaradır, onun digər təhsil pillələri və səviyyələrinin məlumat infrastrukturuna inteqrasiyasını təmin edir;

8.35-2. insan kapitalını inkişaf etdirmək, məşğulluğu təmin etmək və keyfiyyətli əmək bazarı formalaşdırmaq məqsədilə ixtisaslı işçi qüvvəsinin hazırlanması sahəsində mövcud problemləri araşdırır, bu istiqamətdə analitik və metodik materiallar hazırlayır;

8.35-3. yaşlılar üçün (məcburi dövlət sosial sığortasına cəlb olunmayan şəxslərə münasibətdə) peşə təlimini və ixtisasartırmanı təmin edir;

8.35-4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin peşə təhsili almaq hüququnu təmin edir;".

2. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1732, № 8, maddə 1397) ilə təsdiq edilmiş Əlavə II "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.24-1-ci və 3.1.27-2-ci yarımbəndlər əlavə edilsin:

"3.1.24-1. insan kapitalını inkişaf etdirmək, məşğulluğu təmin etmək və keyfiyyətli əmək bazarı formalaşdırmaq məqsədilə ixtisaslı işçi qüvvəsinin hazırlanması sahəsində mövcud problemləri araşdırmaq, bu istiqamətdə analitik və metodik materiallar hazırlamaq;";

"3.1.27-2. yaşlılar üçün (məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslərə münasibətdə) peşə təlimini və ixtisasartırmanı təmin etmək.".

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 869 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 674; 2019, № 5, maddə 848) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin Əsasnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.5. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırmaqla, əmək bazarının tələblərinə və dövlət-özəl tərəfdaşlıq mexanizminə uyğun olaraq, tabeliyindəki peşə təhsili müəssisələrində kadr hazırlığına dair sifarişlərin formalaşdırılmasını təmin edir və proqnozları tərtib edir;";

3.2. aşağıdakı məzmunda 3.1.14-1-ci yarımbənd əlavə edilsin:

"3.1.14-1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırmaqla, işəgötürənlərin və təhsilalanların peşəkarlıq səviyyəsini artırmaq məqsədilə iş yerlərində və tabeliyindəki peşə təhsili müəssisələrində təcrübə proqramları hazırlayır;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

# Paytaxtın payız libası







Foto A.MƏMMƏDOVUNDUR

# Beynəlxalq aləm



## İraqın Baş Naziri istefa verdi

İraqın Baş Naziri Adil Əbdülmehdi ölkədə davam edən etirazlar fonunda istefa vermişdir. Bundan əvvəl ölkənin dini lideri, 89 yaşlı Ayətulla Əli Sistani İraq parlamentini 400-dən çox nümayişçinin polislər tərəfindən öldürüldüyü kütləvi etiraz aksiyalarına görə hökumətin işini dayandırmağa çağırmışdı.

Bağdaddakı Azadlıq meydanında və Nasiriyyə şəhərində Əbdülmehdinin hökumət başçısı vəzifəsindən getməsi xəbərini eşidən nümayişçilər şadyanalıq etmişlər. Fəallar vurğulamışlar ki, bu hələ ilk addımdır. Onlar növbəti dəyişikliklərə nail olmağa çalışacaqlar. İraqda hökumət əleyhinə etirazların hazırkı dalğası 2003-cü ildə diktator Səddam Hüseyn devriləndən bəri ən irimiqyaslı etiraz hərəkatıdır. Məsələn, Nəcəf şəhərində mitinqçilər İran konsulluğunun binasına od vurmuşlar. Bundan əvvəl İranın Bəsrədəki konsulluğu dəfələrlə yandırılmışdı. Ümumilikdə etirazlar zamanı 15 min nəfər zərər çəkmişdir.

Nümayişçilər korrupsiyaya uğramış elitalara, işsizliklə mübarizə tədbirlərinin kifayət etməməsinə, habelə dövlət xidmətləri sektorunun qeyri-səmərəli işləməsinə qarşı çıxış edirlər.

## Aİ Şurasının və Avropa Komissiyasının başçıları vəzifələrindən getdilər




Avropa İttifaqı (Aİ) Şurasının sədri Donald Tusk və Avropa Komissiyasının sədri Jan-Klod Yunker beş il ərzində tutduqları vəzifələrini tərk etmişlər. Yunkeri AFR-in sabiq Müdafiə naziri Ursula fon der Lyayen əvəzləyəcək. Bu barədə "Alman dalğası" radiostansiyası xəbər verir.

Yunker səlahiyyətlərini təhvil verməzdən əvvəl sonuncu brifinqini keçirmiş və bildirmişdir ki, vəzifəsini tərk edərkən məmnunluq, təəssüf və xoşbəxtlik hiss edir.

Aİ Şurasının sədri Donald Tuskun səlahiyyətləri Belçikanın sabiq Baş Naziri Şarl Mişelə verilmişdir. Mərasim Aİ Şurasının Brüsseldəki binasında keçirilmişdir. Tusk vida çıxışında bildirmişdir ki, "şübhə etmirəm ki, Birliyimizi qoruyub saxlamaq üçün siz bütün səylərinizi sərf edəcəksiniz".

## Di Kaprio Amazon meşələrini yandırmaqda ittiham olunur




Braziliya Prezidenti Jair Bolsonaru Hollivud aktyoru Leonardo di Kaprionu Amazoniyada meşə yanğınları törətməkdə şübhəli bilinən qeyri-hökumət təşkilatlarına sponsorluqda ittiham etmişdir. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Siyasətçi sübut kimi QHT üzvlərinin yanğın törətməsini təsdiqləyən faktlarla çıxış etmişdir. Belə ki, ötən həftə özlərinin törətdiyi yanğınlar barədə Dünya Vəhşi Təbiət Fonduna (WWF) fotoşəkillər satmaq istəyən bir neçə nəfər saxlanmışdır. Təsdiqlənməmiş məlumata görə, QHT-lər Hollivud ulduzundan 500 min dollar almışlar. "Fotoşəkillər çəkib QHT-yə göndərirlər, WWF onları yayır, sonradan Leonardo di Kaprio ilə əlaqə yaradırlar, aktyor isə həmin QHT-yə 500 min dollar ödəyir. Di Kaprio, sən Amazoniyanın yandırılmasında iştirak edirsən" deyə Bolsonaru bildirmişdir.

Xatırladaq ki, bu il Braziliyanın Amazon meşələrində rekord sayda - 72 min yanğın qeydə alınmışdır.

Leonardo di Kaprio Amazon meşələrini yanğından qorumaq üçün 5 milyon dollar ayırmağa söz vermişdi.

## Daha 62 min suriyalı İdlibdə ev-eşiklərini tərk etdi



Bəşşar Əsəd rejiminin və onun müttəfiqlərinin hücumlarına görə ötən ayın əvvəlindən bəri Suriyanın şimal-qərbindəki gərginliyin azaldılması zonasında yerləşən yaşayış məntəqələrində daha 62 min dinc sakin (11812 ailə) evlərini tərk etmişdir. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, Əsəd ordusu və onun müttəfiqləri əhalinin adıçəkilən rayonlara qayıtmasına imkan verməmək üçün mülki obyektləri bombalayırlar. Xəstəxanalar, məktəblər, məscidlər, Mülki Müdafiə İdarəsinin ofisləri və yaşayış evləri hücuma məruz qalmışdır.

Ötən il aprelin 17-də Türkiyə və Rusiya Suriyanın şimal-qərbi üzrə razılaşma əldə etdiyi vaxtdan bəri Əsəd rejiminin və onun müttəfiqlərinin hücumları nəticəsində 1300 nəfərdən çox dinc sakin həlak olmuşdur.

Son bir il ərzində Suriyanın şimal-qərbindəki yaşayış məntəqələrindən 1 milyon nəfərdən çox adam ölkənin daha təhlükəsiz rayonlarına qaçmışdır. Onların əksəriyyəti Türkiyə sərhədlərinin yaxınlığında məskunlaşmışdır.

## Napoleonun çəkməsi 117 min avroya satıldı



Parisdə keçirilmiş hərracda Napoleon Bonaparta məxsus çəkmə 117 min avroya satılmışdır. Bu barədə "Drouot" hərrac evi məlumat vermişdir.

Məlumatda deyilir ki, "indicə Napoleonun məşhur çəkməsi 117 min 208 avroya satılmışdır". Alıcının adı açıqlanmır.

Fransa imperatoru ölçüsü 40 və boğazının hündürlüyü 48 santimetr olan qara dəri minik çəkmədən 1821-ci ildə vəfat etdiyi müqəddəs Yelena adasında sürgündə olarkən istifadə etmişdir.

Fransada Napoleona məxsus əşyaların satışı üzrə hərraclar müntəzəm keçirilir. Bundan əvvəl imperatorun taxt-tacı hərracda 500 min avroya satılmışdır.

# *Müdafiə Nazirliyi:* Azərbaycan Ordusunun cəbhədə itki verməsi barədə Ermənistan mətbuatında yayılan xəbərlər dezinformasiyadır

Ermənistan mətbuatının guya cəbhənin Ağdam istiqamətində Azərbaycan Ordusunun Həşimov Səbuhi Səttarxan oğlu adlı hərbi qulluqçusunun həlak olması barədə yaydığı məlumat növbəti dezinformasiyadır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, rəsmi olaraq Azərbaycan Ordusu cəbhədə itki verməyib və ümumiyyətlə, bu ad və soyadda hərbi qulluqçumuz yoxdur.

"Son günlər cəbhə xəttindəki vəziyyətlə bağlı Ermənistan tərəfi bir neçə dəfə yalan məlumat yaymaqla gələcək təxribatları üçün zəmin yaratmaq niyyətindədir. Qarşı tərəfi bu kimi addımlardan çəkinməyə çağırır və düşməni onun istənilən fəaliyyətinin qarşısının Azərbaycan Ordusunun bölmələri tərəfindən dərhal və qətiyyətlə alınacağı barədə xəbərdar edirik", - deyə nazirliyin məlumatında qeyd olunub.

## Ermənistan ordusu atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## BŞBPİ: Mitinq zamanı ictimai asayişin və hüquq qaydasının pozulması halları qeydə alınmayıb

Noyabrın 30-da özünü Azərbaycan Xalq Hərəkatı adlandıran qurumun paytaxtın Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki "Neftçi" idman klubunun təlim bazasında Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış mitinqi keçirilib.

Bakı Şəhər Baş Polis İdarəsindən AZƏRTAC-a daxil olmuş məlumatda bildirilir ki, saat 15:00-dan 17:00-dək davam edən toplantıda həmin qurumun ümumi sayı 450 nəfərədək olan üzvü və təəssübkeşi iştirak edib.

Mitinq zamanı ictimai asayişin və hüquq qaydasının pozulması halları qeydə alınmayıb.

## Heydər Əliyev Mərkəzində Emir Kusturitsa və "The No Smoking Orchestra" qrupunun konserti olub



Noyabrın 29-da Heydər Əliyev Mərkəzində əfsanəvi Emir Kusturitsa və onun "The No Smoking Orchestra" qrupunun konserti keçirilib.

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, tamaşaçılara pozitiv emosiya dolu Balkan musiqiləri və möhtəşəm şou təqdim olunub. Emir Kusturitsa və qrupu proqramda məşhur mahnı və kompozisiyalarını ifa edib.

O, karyerası boyunca müxtəlif sahələrdə populyarlıq və şöhrət qazanıb. Əvvəlcə o, kinorejissor və ssenarist kimi məşhurlaşıb, daha sonra isə özünü istedadlı musiqiçi kimi təsdiqləyib. Çoxşaxəli istedadı və fəaliyyəti Emir Kusturitsanı Balkan mədəniyyətinin simvoluna çevirib.

Emir Kusturitsa 1999-cu ildə "The No Smoking Orchestra" qrupunu yaradıb və onun daimi üzvüdür. O, qrupun tərkibində gitaraçı kimi çıxış edir. "The No Smoking Orchestra" qrupu rok-n-roll, Balkan pank-roku, qaraçı motivləri, türk marşları və Asiya melodiyalarını sintez edir. Kollektiv həmişə tamaşaçılarını təəccübləndirməyi bacarır, izləyicilərin də iştirakı ilə möhtəşəm şou təqdim edir.

## Dekabrın ilk günündə bəzi şimal və qərb rayonlarında arabir yağış yağacaq

Ölkə ərazisində bu günə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənən cənub küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 8-10°, gündüz 12-15° isti, Bakıda gecə 8-10°, gündüz 13-15° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin bəzi şimal və qərb rayonlarında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Səhər bəzi yerlərdə duman olacaq, qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 13-18° isti, dağlarda gecə 0-4°, gündüz 4-9° isti olacağı ehtimal edilir.

Naxçıvan Muxtar Respublikasının bəzi yerlərində yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın gün ərzində arabir yağıntılı olacağı gözlənilir. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-4°, gündüz 4-9° isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının bəzi yerlərində gün ərzində arabir yağış yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 10-15° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi qərb rayonlarında yağış yağacağı gözlənilir. Gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 9-14° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti olacağı ehtimal edilir.

Mərkəzi Aran: Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi qərb rayonlarında yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 4-9°, gündüz 13-18° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-7°, gündüz 11-16° isti, dağlarda gecə 4-9°, gündüz 10-15° isti olacağı ehtimalı var.

## *FHN və Baş Prokurorluq:* Bülbülə qəsəbəsindəki yanğın nəticəsində iki azyaşlının ölümü ilə bağlı cinayət işi başlanıb

Noyabrın 29-da saat 19 radələrində paytaxtın Suraxanı rayonunun Bülbülə qəsəbəsində Aşurbəyovlar küçəsi - 8 ünvanında yerləşən yaşayış binasının 25-ci mənzilində yanğının baş verməsi nəticəsində 2014-cü il təvəllüdlü Ruqayyə Əlizadənin və 2016-cı il təvəllüdlü İsmayıl Əlizadənin tüstüdən boğularaq ölmələri faktı ilə bağlı məlumat daxil olub.

Fövqəladə Hallar Nazirliyinin (FHN) və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, FHN-in canlı qüvvə və texnikası dərhal hadisə yerinə cəlb edilərək yanğının qarşısı alınıb, onun genişlənməsinə və binadakı digər mənzillərə keçməsinə imkan verilməyib. Hadisə yerinə polis, prokurorluq, FHN-in əməkdaşları, Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin eksperti və hal şahidlərinin iştirakı ilə baxış keçirilib.

Faktla bağlı Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

İş üzrə məhkəmə-tibb, məhkəmə-yanğın və texnoloji partlayışların tədqiqi ekspertizaları təyin olunub, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

İlkin istintaqla müəyyən edilib ki, həmin evdə iki ildən artıq müddətdə həyat yoldaşı ilə kirayədə yaşayan 1993-cü ildə Bərdə rayonunda anadan olmuş Könül Əliyeva övladları - Ruqayyə və Anar Əlizadəni mənzildə tək qoyaraq qapını bayırdan bağlayıb saat 18 radələrində mağazaya gedib. O, evə qayıdıb qapını açarkən qatı tüstü olduğunu görüb. Azyaşlılar qonşuların köməyi ilə çıxarıldıqdan sonra yanğın baş verib və dərhal xəstəxanaya aparılmalarına baxmayaraq, hər ikisinin həyatını xilas etmək mümkün olmayıb.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8901
Sifariş 3984
Qiyməti 40 qəpik